*Biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!*

*İlham Əliyev*

*Müzəffər Ali Baş Komandan*


**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR**

*HEYDƏR ƏLİYEV*




# YENİ FİKİR


TƏSİSÇİ: *NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ* 31 oktyabr 2023-cü il,çərşənbə axşamı № 6 (55)


## İlham Əliyev gerçəkliyi: davamlı inkişaf, qüdrətli dövlət, tarixi Zəfər

***Bu mövzuda Naxçıvan Dövlət Universitetinin Beynəlxalq məktəbində tədbir keçirilib.***

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, ulu öndərin və şəhidlərimizin əziz ruhunun bir dəqiqəlik sükutla yad edilməsindən sonra universitetin rektoru Elbrus İsayev çıxış edərək qeyd edib ki, Azərbaycanı dinamik inkişaf yoluna çıxaran ölkə başçısı İlham Əliyevin prezidentlik fəaliyyətinin 20 ili tamam olur.

Ulu Öndər Heydər Əliyev siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev Ona olan ümidləri, etimadı doğrultdu. Ulu Öndər Heydər Əliyev 1 oktyabr 2003-cü il tarixdə xalqa müraciətində cənab İlham Əliyevə Özü qədər inandığını və Onun gələcəyinə böyük inam bəslədiyini bildirmişdi. Belə bir əminlikdi də ifadə etmişdi ki, axıra çatdıra bilmədiyi işləri, planları cənab İlham Əliyev xalqın dəstəyi ilə axıra çatdıracaq.

Elbrus İsayev uğurlarımızın zirvəsində dayanan tarixi Zəferimizdən geniş bəhs edərək bildirib ki, bu, müstəqillik tariximizin ən parlaq səhifəsidir. Prezident İlham



Əliyevin hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi – işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev Prezident kimi gərgin əməyinin nəticəsində Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada mübariz və müzəffər xalq kimi tanıtdı.

Universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayevin “İLHAM ƏLİYEV”-Azərbaycan xalqının arzularını reallaşdıran lider” adlı çıxışında qeyd edib ki, Azərbaycanın son iyirmi ildə qazandığı misilsiz nailiyyətlər, birmənalı olaraq, möhtərəm Prezident İlham Əliyevin müdrik siyasətinin, qətiyyətli, qüdrətli liderliyinin nəticəsi, bariz nümunəsidir.

Cənab İlham Əliyev tarixin ən qüdrətli Azərbaycanının yaradıcısı olmaqla bərabər, həm də onun ən böyük Zəfərinin Müzəffər Komandanıdır. Bu günlərdə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və konstitusiya quruluşunun tam təmin edilməsi isə dövlət başçısı kimi fəaliyyətinin 20-ci ildönümü tamam olan cənab İlham Əliyevin tarixi



missiyasının ən parlaq məqamlarından oldu. Diqqətə çatdırılıb ki, xalqımıza böyük qürur bəxş edən son hadisələr Vətən Savaşında əldə olunan Zəfərdən sonra aparılan hərbi-siyasi proseslərin, yenə də məhz möhtərəm Prezidentimizin “Dəmir yumruğ”unun qəti qələbəsidir.

Universitetin Tarix-filologiya fakültəsinin Tarix ixtisası üzrə II kurs tələbəsi Əziz Vəliyevin “Prezident İlham Əliyevin gənclər siyasəti gələcəyə hesablanmış uğurlu siyasətin təcəssümüdür” mövzusunda çıxışı dinlənilib.

Tədbirin sonunda Bakı Media Mərkəzinin hazırladığı “İLHAM” adlı sənədli film nümayiş etdirilib.

**Səadət Əliyeva**
**NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri**

## “Heydər Əliyev və Azərbaycanın yeni neft strategiyası” mövzusunda konfrans





*“Heydər Əliyev İli” çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən silsilə tədbirlər həyata keçirilir. Oktyabrın 17-də Naxçıvanda “Heydər Əliyev və Azərbaycanın yeni neft strategiyası” mövzusunda konfrans təşkil olunub.*

Konfransda iştirak etmək məqsədilə Naxçıvanda səfərdə olan SOCAR-ın nümayəndə heyəti ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb. Heydər Əliyev Muzeyini ziyarət edən SOCAR rəsmiləri Ümummilli Liderin həyat və fəaliyyətinə dair fotoşəkil və eksponatlarla tanış olublar. SOCAR tərəfindən muzeyə Ulu Öndər Heydər Əliyevin neftqaz sənayesindəki əvəzsiz xidmətlərindən bəhs edən fotoşəkillər əsasında hazırlanmış markalar hədiyyə olunub.

Daha sonra SOCAR nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüşüb. Görüşdə “Heydər Əliyev İli” çərçivəsində SOCAR tərəfindən təşkil olunan tədbirlər, təhsil sahəsində görülən işlər barədə məlumat verilib, sahə üzrə yeni təşəbbüslər müzakirə edilib. Bu xüsusda cari ilin iyununda Bakı Enerji Forumu çərçivəsində “Naxçıvan və Şərqi Zəngəzurun bərpaolunan enerji potensialı” mövzusunda xüsusi sessiyanın Naxçıvan şəhərində uğurla təşkil olunduğu vurğulanıb.

SOCAR ilə Naxçıvan Dövlət Universitetinin rəhbər heyəti arasında keçirilən görüşdə Ulu Öndərin Azərbaycanda elm və təhsilin inkişafı sahəsində apardığı məqsədyönlü siyasətdən bəhs olunub, bu istiqamətdə əldə olunan mühüm nailiyyətlərin təməlinin Ümummilli lider tərəfindən qoyulduğu vurğulanıb. “Heydər Əliyev İli” çərçivəsində ölkəmizin ali təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin əhəmiyyəti qeyd edilib, tərəflər arasında potensial əməkdaşlıq imkanları müzakirə olunub.

Görüşün sonunda SOCAR-ın Bakı Ali Neft Məktəbi ilə NDU arasında Anlaşma Memorandumu imzalanıb.

Daha sonra nümayəndə heyəti Naxçıvan Dövlət Milli Dram Teatrında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təşkil olunan sərgi, konfrans və konsert proqramında iştirak edib. Sonra Ulu Öndər Heydər Əliyevin NDU-ya səfərlərini əks etdirən videoçarx nümayiş olunub. Tədbirdə NDU-nun rektoru Elbrus İsayev, BANM-in rektoru Elmar Qasımov və NDU-nun “Beynəlxalq münasibətlər” kafedrasının dosenti Emin Şıxəliyev çıxış ediblər.

NDU-nun Konservatoriyasının Kamera Orkestrinin ifasında konsert proqramı təqdim olunub.

**Pərviz HACILI**

## Xalqın arzularını reallaşdıran LİDER

*Tarix dəfələrlə sübut edib ki, xalqın vahid məqsədlər uğrunda birləşməsi üçün zəruri olan milli birlik böyük siyasi dühaların yaratdığı ideologiyalarda reallaşır. XX əsrdə xalqımızla bağlı bu şərəfli missiyanı ümummilli lider Heydər Əliyev həyata keçirmişdir.*

Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı ulu öndər Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidmətlərindən biri də, Azərbaycanın gələcək taleyində əvəzsiz rolu, milləti və dövləti qarşısında müstəsna xidmətləri olan cənab İlham Əliyev kimi böyük şəxsiyyət və müdrik bir lider yetişdirməsi olmuşdur. Bu, ondan irəli gəlirdi ki, vətənini canından çox sevən uzaqgörən insanı Azərbaycanın təkcə özünün rəhbərlik etdiyi dövr üçün deyil, ondan sonrakı taleyi də düşündürürdü. Müasir Azərbaycan dövlətinin memarı Ümummilli Lider Heydər Əliyev qurduğu dövlətin taleyini tapşıracağı yeni Liderin seçilməsində nümayiş etdirdiyi özünəməxsus müdrikliyin miqyası illər keçdikcə daha aydın görünür, seçimin uğuru təkzibolunmaz şəkildə öz təsdiqini tapdı. Onun 2003-cü ilin prezident seçkiləri ərəfəsində prezidentliyə namizəd İlham Əliyev haqqında dediyi ***“mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o, başa çatdıracaqdır”*** sözləri uzaqgörənliyin və seçimin alternativsizliyinin bariz nümunəsi sayıla bilər. Hələ 2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən ***"Mən hər bir azərbaycanlının Prezidenti olacağam"***, –deyən cənab İlham Əliyev cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi liderə çevrilmişdir. Ötən illərin reallıqları sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini sübuta yetirmiş, inam və etimad üzərində qərarlaşan, gələcəyə hesablanan güclü dövlət konsepsiyası ilbəil uğurla gerçəkləşdirilmişdir.



Dövlət başçısı yüksək erudisiyası, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti, polad iradəsi, yorulmaz fəaliyyəti və xalqla iqtidar arasında olan sıx birliyin sayəsində planetimizin üzləşdiyi çoxsaylı qlobal çətinliklərə, ümumbəşəri ciddi və mürəkkəb problemlərə, həmçinin müharibədən yeni çıxmış ölkə olmağımıza rəğmən, respublikamızda iqtisadiyyat güclənir, bütün sahələrdə mütəmadi olaraq mütərəqqi islahatlar həyata keçirilir, regionların tarazlı inkişafının davamlılığı təmin olunur, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə dövlətimiz daha da qüdrətlənir və doğma Azərbaycanımız durmadan çiçəklənir.

Azərbaycan dövləti, Azərbaycan xalqı İlham Əliyev cənablarının rəhbərliyi altında gələcəyə, yüksəlişə və inkişafa doğru inamla irəliləyir və hər bir ölkə vətəndaşının fəxr edəcəyi, qürur duyacağı bir məkana çevrilir. Ötən illər aşkar şəkildə göstərdi ki, cənab İlham Əliyev öz fəaliyyət dövrünü bu amalın reallaşmasına həsr etmiş, Ulu öndərimizin müstəqillik və azadlıq ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf demokratik hüquqi dövlət quruculuğu və siyasi sabitlik baxımından dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir.

Xalqımız öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək müasir Azərbaycan tarixinin ən böyük uğurunu-bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə – Ali Baş Komandana sahib olduğunu aşkar gördü. 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Uzaqgörən lider İlham Əliyev həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzü birmənalı olaraq təsdiq etdi. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə kimi deyil, diplomatik cəbhədə də böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Xalqımız öz dövlət başçısının xalqın, dövlətin maraqları naminə böyük qətiyyətini bir daha gördü.

Zamanın gedişini haqqın ədalətin bərpası istiqamətində dəyişən müdrik lider və yenilməz sərkərdə İlham Əliyev dühasının Azərbaycana qazandırdığı möhtəşəm qələbə xalqa ən dəyərli ərməğan oldu. Birmənalı olaraq Vətən müharibəsində əldə etdiyimiz qələbə Azərbaycan tarixində, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bu qələbə sayəsində qalib xalq kimi özünü dünyaya bəyan etdi. Ali Baş Komandan Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək, xalqımıza özünün çoxəsrlik tarixində ən böyük uğuru və xoşbəxtliyi yaşatdı.

Son 20 ilin uğurları, tarixə yazdığı möhtəşəm qələbələri, deməyə əsas verir ki, dövlətimizin başçısı qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaq üçün istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə düşünülmüş və məqsədyönlü siyasət həyata keçirərək Azərbaycanın timsalında “Güclü dövlət“ konsepsiyasını reallaşdırmağa nail olmuşdur. Prezident İlham Əliyev qurucu, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətin və xalqın maraqlarını ən ali məqsəd kimi qarşıya qoyan və bütün qüvvəsini bu vəzifələrin reallaşmasına səfərbər edən, milyonların sevgisini qazanan alternativsiz LİDERdir.

Son 20 ildə bütün bu uğurların şahidinə çevrilən Azərbaycan xalqı əldə olunan nailiyyətləri ölkə Prezidenti cənab İlham Əliyevin ümumilli maraqlara söykənən məqsədyönlü siyasətinin məntiqi nəticəsi hesab edir, ölkəmizin gələcəyini bu siyasi kursun ətrafında sıx birləşməkdə görür.

**Arzu ABDULLAYEV**
**Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru**

***İki on illik qoca tarix üçün bəlkə də böyük bir zaman dilimi deyil. Amma Cənubi Qafqazın ən güclüsü olan Azərbaycan üçün cənab İlham Əliyevin 20 illik Prezidentliyi dövrü həm də əsrə bərabər işlərin görüldüyü, suverenliyimizin təmin edilməsi ilə yaddaşlara yazılan əlamətdar ayların, günlərin məcmusudur.***

## XXI əsrin qızıl iyirmiliyi və yaxud cənab İlham Əliyevin dünya boyda Azərbaycan sevgisi





Bəli, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında gözlərimiz önündə şərəfli, parlaq bir zəfər gündəliyi yazılır. İllər sonra oğul-uşaqlarımız, nəvə-nəticələrimiz bu yaşananları tarix kitablarından oxuyacaq, biz isə onlara dövrün şahidləri kimi, qürurlu günlərimizin fəxarətindən bəhs edəcəyik. XXI əsrin Sərkərdəsi – cənab İlham Əliyevin əllərində Şuşa, Xankəndi, Xocalı, Xocavənd – bütün Qarabağın azad səmasına yüksəldilən üçrəngli göylər gözəli, necə xoşbəxt, bəxtəvərsən sən! İndi qalib əsgərin sənə zəfər salamı verməsi halal haqqındır, ay-ulduzlu hilalım!

Mənə görə həm də bu, Azərbaycan bayrağının zəfər paradıdır. Ona görə paradı ki, cənab İlham Əliyev öz ordusu ilə erməni tapdağından azad etdiyi bütün torpaqlarda bayrağımızı ucaltdı. Başqa sözlə, Azərbaycan Liderinin sözü və imzası birdir. O, siyasi həyatında verdiyi bütün sözlərə sadiqdir. 2003-cü ildə xalqın böyük etimadı ilə Prezident seçilməsindən sonra müqəddəs kitabımız olan “Qurani-Kərim”ə və Konstitusiyaya əl basaraq and içmişdi ki, ərazi bütövlüyümüz bərpa ediləcək, üçrəngli bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda dalğalanacaq.

Və budur... Cənab İlham Əliyev əməli, işi, həyata keçirdiyi layihələri ilə tarix yazır. Bir neçə gün bundan öncə yağılardan azad edilmiş tarixi şəhərimiz olan Xankəndidən xalqa müraciəti zamanı milyonların qüruruna dönən cənab Prezident ötən 20 ili belə xarakterizə etmişdi: ***“Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi. Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı “Allaha şükür!”, – deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz əminəm ki, inanırdıq ki, bu gün gələcək”.***

Qalib Komandan tarixi yaratmanın və yaşatmanın möhtəşəm örnəyini nümayiş etdirir. Ərazi bütövlüyümüzün bərpa olunması, işğalçıların torpaqlarımızdan rədd edilməsi prosesi son üç ilin hadisəsi olsa da, əslində, cənab İlham Əliyev bu böyük zəfərin konturlarını hələ 2003-cü ilin 15 oktyabrında – ilk dəfə Prezindet seçildiyi gündən etibarən həssaslıqla işləyib hazırladı. Bu, uzaqgörən Liderin həm özü, həm də xalqı qarşısındakı hesabatı idi. İndi ötən 20 ilin Azərbaycanına nəzər saldıqda görürük ki, bugünkü uğurlarımızın təməlində 20 illik siyasi iradə və qətiyyət, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sadiqlik və nəhayət, cənab İlham Əliyevin qəlbindəki dünya böyda Azərbaycan sevgisi dayanır.

Qarabağ münaqişəsinin həlli ötən 20 ildə İlham Əliyev diplomatiyasının mərkəzində dayandı. Keçirdiyi bütün görüşlərdə, iştirak etdiyi tədbirlərdə dünyanın qulağına möhkəm səslə hayqırdı ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir, Qarabağ Azərbaycanın suveren ərazisidir, xalqımız və dövlətimiz heç bir vəchlə işğalla barışmayacaq! 2019-cu ildə Soçidə, “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında isə ən sərt, ən tutarlı, milyonlarla azərbaycanlının qəlbindən qopan tarixi mesajı verdi: ***“Qarabağ Azərbaycandır və nida işarəsi”.***

Böyük Sərkərdə bu düyünün açılması – Qarabağ probleminin həlli üçün təkcə diplomatiya yox, bütün sahələrdə məqsədyönlü iş aparmışdı. O bilirdi ki, dünyada güc amili hər zaman öz sözünü deyir. Güclüsənsə, deməli haqlısan. Güclü olmaq üçün iqtisadiyyat, ordu inkişaf etdirilməli, ideoloji cəhətdən hərtərəfli hazırlanmış yeni nəsil yetişdirmək lazım idi. Mahir siyasətçi ötən 20 il ərzində bu yolda sözün həqiqi mənasında, cəfa çəkdi, fədakarlıq nümayiş etdirdi.... Və bir gün biz gördük ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında qərarlaşıb. Ən müasir atıcı silahlar, pilotsuz uçuş aparatları, aviasiya vasitələri silahlı qüvvələrimizin arsenalına daxil edilib. Amma ən vacib olan qəlbində qisas və intiqam hissi ilə yaşayan, Qarabağı görməsələr də Qarabağ eşqi ilə alışıb yanan, Ali Baş Komandanından “İrəli” əmrini gözləyən əsgər və zabitlərimiz idi. Hansı amal uğrunda qan töküb can aldığını bilənlərin bir şüarı var idi: “Mövzu Vətəndirsə gerisi təfərrüatdır”. Bax, belə bir gənclik yetişdirmişdi cənab İlham Əliyev, məhz Onun 20 illik siyasi fəaliyyəti dövründə həyata keçirilmişdi bu ideoloji xətt.

Qeyri-səmimi mühitdə baş tutan görüşlər səmərə verməyəndə, ədalətsiz dünya haqlının yox, işğalçının yanında yer alanda cənab İlham Əliyevin iradəsi, qətiyyəti öz sözünü dedi. 44 gün davam edən hərbi əməliyyatla özünü “yenilməz”, qazdıqları tülkü yuvalarını isə “keçilməz” adlandıranlara dərs keçdik. Biz Ona Vətən müharibəsindən sonra həm də MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN dedik. O, hər bir azərbaycanlının Prezidenti olmaqla yanaşı, həm də ən əzizi, doğması halına gəldi. O bu sevgini, xalq məhəbbətini 20 illik siyasi fəaliyyəti dönəmində zərrə-zərrə, qram-qram toplamışdı. Əslində, bu, dünyada hər liderə, ölkə başçısına nəsib olan xoşbəxtlik deyil. Bu sevgi seli çoxlarının arzusu olsa da, cənab İlham Əliyevin yaşadığı, duyduğu reallıqdır.

Bu gün isə İlham Əliyevin 20 illik siyasi fəaliyyətinə Xankəndi, Xocalı, Xocavənd, Ağdərə ucalığından baxırıq. Möhtərəm Prezident Xankəndindəki inzibati binanın pəncərsini açıb otağın havasını dəyişməklə həm də göstərdi ki, şəhərə əsl azərbaycanlı ruhu, doğmalıq, təmiz hava geri qayıdıb. Murdar, iylənmiş, avantürizm və separatçılıq niyyəti güdənlərə bu torpaqlarda daha yer yoxdur. Bir vaxtlar tarixi şəhərimizdə oturub bizimlə ultimatum ritorikası ilə danışan təlxəklər, xalqımızın başına amansız müsibətlər gətirib soyqırımı aktı törədənlər indi Bakıda Azərbaycan qanunları ilə mühakimə olunurlar. Fikrimizcə, bu faktın özü belə 20 illik zəfərin təntənəsi hesab olunmalıdır.

Bəli, 86, 6 kvadratkilometrlik ərazidə İlham Heydər oğlu Əliyevin siyasi qətiyyəti və iradəsi keçərlidir. Bu iradə bizə bundan da parlaq günlər nəsib edəcək. Cənab İlham Əliyevin iradəsi bizə Zəngəzur dəhlizinin reallaşması ideyasını, yavru Vətən Naxçıvanın anamız Azərbaycana qovuşmasını təmin edəcək. Çünki O, sözübütöv, sülhsevər, məramı xoş LİDERdir.

**Muxtar RZAZADƏ**
**“Mətbuat tarixi” ixtisası üzrə**
**II kurs magistrant**

## Universitetimizin prorektorundan qürurverici nailiyyət



Ötən günlərdə Azərbaycan nümayəndə heyətinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Dövlət Universitetinin prorektoru Aidə Cəlilzadə Strasburqda Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Cari Məsələlər Komitəsinin 1-ci vitse-prezidenti seçilib.

Məlumatı Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin müavini Anar İbrahimov öz sosial şəbəkə hesabında paylaşım edib.

Nəzərinizə çatdıraq ki, Aidə Cəlilzadənin namizədliyi 45-ci sessiyada Europen Conservative and Reformist (ECR) siyasi partiya qrupu tərəfindən irəli sürülüb.

Naxçıvan Dövlət Universitetinin professor-müəllim və tələbə heyəti adından Aidə müəlliməni bu mühüm uğuru münasibətilə təbrik edir, ictimai-siyasi fəaliyyətində nailiyyətlər arzu edirik.

## “Qərbi Azərbaycan irsinin tanıdılmasında Ulu Öndər Heydər Əliyevin rolu” mövzusunda elmi-praktiki konfrans



“Qərbi Azərbaycan irsinin tanıdılmasında Ulu Öndər Heydər Əliyevin rolu” layihəsi çərçivəsində respublikanın regionlarında tələbə - professor heyətinin, alimlərin iştirak etdiyi elmi – praktiki seminarlar davam etməkdədir. Bakı Politoloqlar Klubunun təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə bu dəfəki tədbir Naxçıvan Muxtar Respublikasında baş tutub. Naxçıvan Dövlət Universitetində keçirilən elmi – praktiki konfransda Naxçıvan şəhər professor – müəllim heyəti, alimləri, ictimai–siyasi fəal gənclər, tələbələr iştirak ediblər.

Konfransda əvvəlcə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışı zamanı qonaqları və iştirakçıları salamlayaraq, mövzunun aktuallığına toxunub, regionlarda bu mövzuda həyata keçirilən tədbirlərin əhəmiyyətini vurğulayıb. Rektor ali təhsil müəssisələrində Qərbi Azərbaycan mövzusu üzrə ardıcıl işlərin görülməsinin vacibliyini qeyd edərək Naxçıvan Dövlət Universitetində də bu istiqamətdə tədqiqat işlərinin aparıldığını bildirib.

Layihənin rəhbəri, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov rektor Elbrus İsayevə yaratdığı şəraitə görə təşəkkür edərək “Qərbi Azərbaycan irsinin tanıdılmasında Ümumilli Lider Heydər Əliyevin rolu” layihəsinin məqsədləri haqqında auditoriyanı məlumatlandırıb. “Tarixi Azərbaycan torpaqlarına qayıdış – milli prioritetimizdir: Prezident İlham Əliyevin Qərbi Azərbaycan hədəfi” mövzusunda çıxış edən Zaur Məmmədov eyni zamanda, “Qərbi Azərbaycan: tarixi – siyasi aspektlər” adlı məqalələr toplusunu Naxçıvan auditoriyasına təqdim edib.



Sonra, Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Hikmət Babaoğlunun “Qərbi Azərbaycana qayıdış: beynəlxalq hüquqi əsasları və müasir çağırışlar kontekstində” mövzusunda məruzəsi dinlənilib. Millət vəkili Qayıdış konsepsiyasının hüquqi – siyasi əsasları haqqında geniş məlumat verərək bu istiqamətdə aparılan işlərə aydınlıq gətirib.

Ali Məclisin deputatı, YAP Naxçıvan şəhər təşkilatının sədri, NDU–nun dosenti Elman Cəfərli “Qərbi Azərbaycan, Naxçıvan irsinin qorunmasında Ümumilli Lider Heydər Əliyevin rolu” mövzusunda çıxış edib. O, Ulu Öndərin Zəngəzurla və Naxçıvanla bağlı apardığı siyasətin mahiyyətinə diqqət çəkib.

Naxçıvan Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru Abdulla Mustafayev “Ermənilərin Azərbaycana köçürülməsi, azərbaycanlıların deportasiyası tarixi və Ulu Öndər Heydər Əliyevin deportasiya ilə bağlı bəyanatları, qərarları” mövzusunda çıxışı zamanı bu istiqamətdəki hadisələri xronoloji ardıcıllıqla qeyd edərək, erməni dövlətinin yaranması, azərbaycanlıların başına gətirilən etnik təmizləmə, deportasiya faktorlarını iştirakçıların nəzərinə çatdırıb.

Daha sonra konfrans interaktiv formada davam edib, alimlər, ziyalılar və gənc fəallar mövzu ilə bağlı öz fikirlərini bildirib, iştirakçıların sualları cavablandırılıb.

**Səadət ƏLİYEVA**

## I Özbəkistan-Azərbaycan Akademik Forumuna Naxçıvan Dövlət Universitetindən professor-müəllim heyəti də qatılıb



İpək Yolu Akademiyası və Cizak Dövlət Pedaqoji Universitetinin təşkilatçılığı ilə onlayn formatda Təhsil Tədqiqatları və İnnovasiyalar üzrə I Özbəkistan-Azərbaycan Akademik Forumu keçirilib. Forumda Özbəkistan və Azərbaycan Universitetlərinin hər birindən 20 nəfər olmaqla ümumilikdə 40 nəfər alimin məruzəsi dinlənilib. Forumun keçirilməsində məqsəd mədəniyyətlərarası maarifləndirməni asanlaşdırmaq, beynəlxalq mübadilələri təşviq etmək, yeni araşdırmaları paylaşmaqdır.

21 oktyabr-Özbək dili günü, Ümummili lider Heydər Əliyevin anadan olmasının 100 illiyi, 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan dili günü, Özbəkistan Azərbaycan arasında diplomatik əlaqələr təqdim edilən mövzular sıasında olub.

Tədbiri Özbəkistan İpək Yolu Araşdırma Mərkəzinin rəhbəri professor Əzəmət Əkbərov açıq elan edib.

Plenar iclasda Cizak Dövlət Pedaqoji Universiteti, Daşkənd Dövlət Şərqşünaslıq Universiteti, Urqanç Dövlət Universiteti, Buxara Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları, Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı Səfirliyi yanında H.Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru çıxış ediblər.

Sonra NDU-nun dosentləri İman Cəfərov, Şəhla



Şirəliyeva, Sevinc Abbasova, Elçin Zamanlı, Taleh Xəlilov Özbək-Azərbaycan elmi-ədəbi, mədəni əlaqələri haqqında məruzə ilə çıxış ediblər. Konfrans müxtəlif bölmə iclasları üzrə öz işini davam etdirib.

Forumun sonunda iştirakçılara beynəlxalq sertifikat təqdim edilib.

## Beynəlxalq Məktəbdə “ELSA Naxçıvan”ın təqdimatı olub




*Tədbir Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.*

Tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev qonaqları salamlayıb. Rektor qeyd edib ki, tələbələr layihənin imkanlarından faydalanacaq, hüquq sisteminin təkmilləşməsinə öz fayda və səmərəsini verəcək.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi, Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev çıxış edərək gələcəyin hüquqşünaslarına öz dəyərli məsləhət və tövsiyyələrini çatdırıblar.

ELSA Azərbaycanın prezidenti Nərminə Hüseynzadə bildirib ki, ELSA dünyanın ən böyük hüquqşünas tələbələri təşkilatıdır. ELSA Avropanın 42 ölkəsinin, 210 universitetindən olan 35 mindən çox hüquqşünas tələbəni və gənc hüquqşünası özündə birləşdirir. Təşkilatın yaradılmasında və hazırkı fəaliyyətində əsas məqsəd Avropanın müxtəlif ölkələrindən olan gəncləri eyni təşkilatda birləşdirməklə onlar arasında mənəvi-əxlaqi inteqrasiyaya, elmi biliklərin paylaşılmasına nail olmaqdan, beynəlxalq konfranslar, təlimlər, simulyasiya məhkəməsinin keçirilməsi yolu ilə hüquqşünas tələbələrin nəzəri biliklərinin praktiki tətbiqinə şərait yaratmaqdan ibarətdir.

Nərminə Hüseynzadə ELSA Naxçıvanın əsasının qoyulmasında göstərdiyi dəstəyə görə Elbrus İsayevə öz minnətdarlığını bildirib və təşkilatın adından rektora təşəkkürnamə təqdim edilib.

ELSA Azərbaycanın və ELSA Naxçıvanın bayrağı təqdim edilib, qarşılıqlı reqlamentlərə imza atılıb. Qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının 8 tələbəsindən ibarət idarə heyəti təsdiq olunub.

Rəsmi hissə başa çatdıqdan sonra ELSA Naxçıvanın Prezidenti Xəyalə Məmmədova və lokal idarə heyətinin çıxışları dinlənilib.

**Səadət ƏLİYEVA**

## Yaponiyada yaşayan dünyaşöhrətli azərbaycanlı alim Xəlil Kələntər ali təhsil ocağında “Patentə gedən yol” adlı təlim keçib



Naxçıvan Dövlət Universitetində elektronika sahəsində tanınmış azərbaycanlı alim Xəlil Kələntərin “Patentə gedən yol” adlı təlimi keçirilib. Alim apardığı tədqiqatların nəticələrini, ixtira və patentlərini seminar iştirakçılarının diqqətinə çatdırıb.



Professor ənənəvi və müasir televizorların arxa fon işıqlarının strukturu, maye kristal ekranlar, 3D displeylər və digər ekran texnologiyaları (Mini-LED, Micro-LED, LCOS) barədə də danışıb. Xəlil Kələntər eyni zamanda özünün müəllifi olduğu və bütün dünya ölkələrində geniş istifadə olunan “Backlight unit” və “Backlight optics” texnologiyaları barədə məlumat verib.

Professor Xəlil Kələntərin məruzəsi seminar iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb, qonaq universitet əməkdaşlarının çoxsaylı suallarını cavablandırıb.

Qeyd edək ki, professor Xəlil Kələntər əvvəlki və yeni nəsil monitorların yaradılmasında əvəzsiz xidmətləri olan alimdir. Bütün dünyada elektronika sahəsində tədris olunan onlarla kitabın, eləcə də, çoxsaylı elmi məqalələrin müəllifi olan Xəlil Kələntər həm də Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvüdür.

# Görkəmli akademikin anadan olmasının 75 illiyinə həsr olunmuş elmi-texniki konfrans

*Naxçıvan Dövlət Universiteti və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutunun birgə təşkilatçılığı ilə həyata keçirilən Akademik Mahmud Kərimovun anadan olmasının 75 illiyinə həsr olunmuş elmi-texniki konfrans keçirilib.*

Konfransdan əvvəl Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edən qonaqlar Ulu Öndərin heykəlinin önünə gül dəstələri qoyub hörmət və ehtiramlarını ifadə ediblər. Sonra Heydər Əliyev Muzeyinə baxış olub. Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı iştirakçılara ümummilli liderin şərəfli ömür yolunu əks etdirən fotoşəkillər, dahi rəhbərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən imzaladığı qərarlar, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, xatirə əşyaları və digər dəyərli eksponatlar barədə ətraflı məlumat verilib.

Konfransda Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edərək Mahmud Kərimovun mənalı ömür yolundan, zəngin elmi yaradıcılığından danışıb. O, görkəmli alimin çoxşaxəli elmi fəaliyyəti ilə radiasiya fizikası və informatika sahələrinin yeni biliklərlə zənginləşməsində mühüm rol oynadığını bildirib. Rektor konfransın işinə uğurlar arzulayıb.






Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının I vitse prezidenti Arif Həşimov qeyd edib ki, Mahmud Kərimovun elmi tədqiqatlarının başlıca istiqaməti dielektriklər fizikası ilə bağlı olub. Alimin bir çox istiqamətlər üzrə müəyyən etdiyi metodlar və gəldiyi elmi nəticələr həmişə öz aktuallığı, fundamental-nəzəri və tətbiqi əhəmiyyəti ilə seçilib.

Vurğulanıb ki, böyük alim AMEA-ya rəhbərliyi dövründə Azərbaycan dövlətinin elm siyasətinə böyük töhfələr verib və elmimiz yeni bir inkişaf mərhələsinə qədəm qoyub. Bu görkəmli elm təşkilatçısı Azərbaycan elminin dünya elm strukturlarına sürətlə inteqrasiya olunmasına, xarici ölkələrdə əlaqələrin xeyli genişlənməsinə xidmət edib.

Bildirilib ki, görkəmli alimin elmi fəaliyyəti elektron paramaqnit rezonans, elektrik sahəsi, polimer, foto, radiasiya prosesləri sahələrini ötən əsrin 90-cı illərində isə oksid birləşmələr və onların əsasında heterogen sistemlər, yarımkeçiricilər, neft, poliaromatik birləşmələr sahələrini də əhatə edib. Onun araşdırmalarının nəticələri ölkəmizdə və onun hüdudlarından kənarda nəşr edilib və 200-ə yaxın elmi əsərdə öz əksini tapıb. Mərhum alim elmi nailiyyətlərinə görə bir çox patent və müəlliflik şəhadətnamələri alıb.

Arif Həşimov qeyd edib ki, Mahmud Kərimov 1973-cü ildən akademiyanın Fizika İnstitutunda mühəndis kimi fəaliyyətə başlayıb. 1974-1984-cü illərdə radiasiya tədqiqatları sektorunda kiçik elmi işçidən laboratoriya rəhbəri vəzifəsinədək yüksəlib və 2001-ci ildə həmin sektorun direktoru olub. 2001-ci ildə AMEA-nın prezidenti seçilən Mahmud Kərimov ömrünün sonunadək bu vəzifədə çalışıb. Alim AMEA-ya rəhbərliyi dövründə dövlətin elm siyasətinin regionlarda da uğurla tətbiqinə çalışıb.

Diqqətə çatdırılıb ki, mərhum akademikin zəngin elmi və elmi-təşkilatı fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. O, Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeninə layiq görülüb.

Sonra Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutunun icraçı direktoru, dosent Rəvan Mehdiyeva, Radiasiya Problemləri İnstitutunun baş direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü İslam Mustafayev, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin müşaviri, akademik Adil Qəribov və ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, professor Asəf Zamanov və digər çıxış edənlər görkəmli alimlə bağlı xatirələrini bölüşüblər.

Qeyd edək ki, 2 ənənəvi və 1 onlayn olmaqla 3 bölmədə iki gün ərzində öz işini davam etdirib. Elmi-texniki konfrans Radiasiya materialşünaslığı, Radiasiya təhlükəsizliyi, Radioekologiya, Radiasiya texnologiyalarının təbabət və ətraf mühit problemlərinin həllinə tətbiqi mövzularında müzakirələri əhatə edib.

**Məmmədbağır DÜNYAMALIYEV**

# Universitet müəllimləri IBM üzrə "SkillsBuild for Academia" proqramına qoşulublar

*Naxçıvan Dövlət Universiteti ilə IBM arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən bu sahə üzrə seçilən müəllimlər "SkillsBuild for Academia" proqramına qoşulublar. Proqrama hazırlığın vəziyyətinə dair ali təhsil ocağında görüş keçirilib.*

Universitetin rektoru Elbrus İsayev müəllimlərin bu istiqamətdə qoşulacağı təlimlərin əhəmiyyətini diqqətə çatdırıb. Rektor qeyd edib ki, bu istiqamətdə həyata keçirilən təlim və tədris proqramları texnologiya sahəsində təhsil proqramlarını dəstəkləyərək və təmin edərək tələbələrin və tədqiqatçıların hazırlığına təkan verir. Elbrus İsayev vurğulayıb ki, tədqiqat sahəsində universitetlərlə beynəlxalq əməkdaşlıq sahələri texnologiyaların inkişafına kömək edir.

Görüşdə qeyd edilib ki, bu kurs çərçivəsində ilkin olaraq 20 professor-müəllim heyətinin iştirakı nəzərə alınaraq 5 modul üzrə Cloud Business (Bulud biznesi), Enterprise Design Thinking (Dizayn düşüncəsi), Artificial Intelligence (Süni intellekt), Cybersecurity (Kiber təhlükəsizlik), Data Science (Data elmi ) təlimlər həyata keçiriləcək. Eyni zamanda bu proqrama tədris materialları və TTT(train the trainer) kurslarının



Diqqətə çatdırılıb ki, artıq oktyabr ayında "Cloud Business" təlimi üçün 3 müəllim "IBM Skills Network" platformasından qeydiyyatdan keçərək təlimlərə cəlb olunub.

Qeyd edək ki, IBM dünya çapında informasiya texnologiyaları və xidmətlər sahəsində liderdir. Bu əməkdaşlıqların məqsədi, texnologiya sahəsində peşəkar kadrlar yetişdirmək və müstəqil tədqiqat və inkişafı dəstəkləməkdir.

**Səadət Əliyeva**

# Media nümayəndələri Naxçıvan Dövlət Universitetində oldular





*"Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Mərkəzi Bankının təşkilatçılığı ilə muxtar respublikada səfərdə olan bir qrup media nümayəndəsi Naxçıvan Dövlət Universitetinin qonağı olublar.*

Tibb fakültəsinin fəaliyyəti ilə yaxından tanış olan qonaqlara tibbi kadrların hazırlığı üçün xarici universitetlərlə geniş əlaqələr, təcrübə mübadilələri, fakültənin beynəlxalq layihələrdə iştirakı, müasir laboratoriyaların qurulması haqqında geniş məlumat verilib. Media nümayəndələri fakültədə dərs prosesini izləyiblər.

Sonra qonaqlar ali təhsil ocağının Diplomatiya kabinəsində rektor Elbrus İsayevlə görüşüblər. Görüş zamanı rektor qonaqlara ali təhsil müəssisəsinin strukturu, professor-müəllim heyəti, tələbə kontingenti barədə ətraflı məlumat verib. Rektor universitetin beynəlxalq əlaqələrinin yüksək inkişafından da danışaraq bilirib ki, təhsil məkanında ilk olaraq İT sahəsi üzrə nəhəng şirkət olan IBM və "Robotex Türkiyə" ilə əldə olunan əməkdaşlıq universitetin texnologiya həllərinə çıxış imkanlarının artırılması üçün mühüm addımdır. Rektor sadalanan əməkdaşlıqların innovasiya yönümlü layihələrin dəstəklənməsinə və inkişaf etdirilməsinə, strateji problemlərə uyğunlaşdırılmış ixtisaslı



kadrların yetişdirilməsinə töhfə verəcəyinə əminliyini vurğulayıb.

Qeyd olunub ki, universitetdə uğurla fəaliyyət göstərən IELTS və SAT qeydiyyat və imtahan mərkəzləri də muxtar respublikada ingilisdilli təhsil mühitinin formalaşmasına öz töhfəsini verməkdədir.

Sonra Elbrus İsayev media nümayəndələrinin suallarını cavablandırıb.

# Görkəmli bəstəkar Tofiq Bakıxanov ali təhsil ocağında

*Naxçıvan Dövlət Universitetində görkəmli bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti, Əməkdar incəsənət xadimi, Bakı Musiqi Akademiyasının professoru, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, "Şöhrət" və "Şərəf" ordenli, professor Tofiq Bakıxanovun yaradıcılıq və müəllimlik fəaliyyətinin 70 illik yubileyinə həsr olunmuş konsert proqramı təşkil olunub.*



Giriş sözü ilə çıxış edən universitetin rektoru Elbrus İsayev bəstəkarın həyat və yaradıcılığından bəhs edib. Qeyd edilib ki, Tofiq Bakıxanov əsərləri ilə Azərbaycan musiqi mədəniyyətinin inkişafına xidmət edən böyük bəstəkar, mahir ifaçılıq imkanlarına malik skripkaçı, milli musiqiçi kadrların yetişməsində əməyi olan gözəl pedaqoq, professor, musiqi sənətinin müxtəlif problemlərinə həsr olunmuş elmi-publisistik məqalələrin müəllifi, milli musiqimizi, incəsənətimizi, mədəniyyətimizi xarici ölkələrdə geniş təbliğ edən fəal ictimai xadim kimi tanınır.

Bildirilib ki, Tofiq müəllim görkəmli tarzən-pedaqoq və muğam bilicisi Əhmədxan Bakıxanovun ailəsində dünyaya gəlib və muğam mühitində boya-başa çatıb. Təsadüfi deyil ki, muxtar respublikada Tofiq Bakıxanovun 75, 80 və 85 illik yubileyləri yüksək səviyyədə qeyd edilib. "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adını və Naxçıvan Muxtar Respublikasının 85 illiyi münasibətilə təsis edilmiş qızıl medalı görkəmli bəstəkara təqdim edilib. Rektor bəstəkarın yaradıcılıq fəaliyyətinin 70 illiyi münasibətilə təbrik edib, ona cansağlığı, yaradıcılıq uğurları arzulayıb.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Günay Məmmədova qeyd edib ki, Tofiq Bakıxanov dahi bəstəkar, Azərbaycan milli bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin xeyir-duası ilə musiqi sənətinə gəlib və məhz onun məsləhəti ilə skripka alətini seçib. Bildirilib ki, Tofiq Bakıxanovun yaradıcılığı çoxşaxəli və məhsuldardır. Bəstəkar skripka, viola, violonçel, fleyta ilə forte-piano üçün iyirmidən artıq sonatanın, trio, kvartet, kvintetlərin, müxtəlif alətlər ilə simfonik orkestr üçün 26 konsertin müəllifidir. Azərbaycanda ilk birpərdəli baletin yaradıcısı olub. Bəstəkar eyni zamanda, üç balet, üç musiqili komediya, 100-ə qədər mahnı və romanslar bəstələyib. Simfonik musiqi sahəsi isə bəstəkarın yaradıcılıq irsində səkkiz simfoniya, beş simfonik muğam, beş simfonik poema, simfonik süitalar, uvertüralar və s. əsərlərlə təmsil olunub.

Tofiq Bakıxanovun həyat və yaradıcılığında Naxçıvana olan məhəbbətini xüsusi qeyd edən Günay Məmmədova diqqətə çatdırıb ki, Naxçıvanı "Ulu və müqəddəs diyar" adlandıran bəstəkar, xüsusilə, son dövr yaradıcılığında məhz Naxçıvanla bağlı mövzulara geniş yer verib. Belə ki, bəstəkarın simfonik orkestr üçün yazdığı "Naxçıvan" simfoniyettası, Naxçıvana həsr olunmuş mahnıları ("Naxçıvan", "Nurlu Naxçıvan", "Arpaçay", "Batabat bağları" və başqaları) onun bu qədim diyara və qurucu rəhbərə olan məhəbbətinin ifadəsidir.

Azərbaycan Respublikasının Xalq artisti, Əməkdar incəsənət xadimi, professor Tofiq Bakıxanov ona göstərilən yüksək diqqət və qayğıya görə dərin minnətdarlığını ifadə edib, yubileyin təşkilatçılarına öz təşəkkürünü bildirib.

Tədbirin bədii hissəsində Tofiq Bakıxanovun əsərlərindən ibarət konsert proqramı nümayiş olunub. Respublika və Beynəlxalq müsabiqələr laureatı Firuzə Qədimalıyevanın müşayiəti ilə Azərbaycan Milli Konservatoriyasının II kurs magistrantı Hüseynağa Səmədovun tarda ifası tamaşaçılara xoş ovqat bəxş edib.

Sonda xatirə şəkli çəkdirilib.

**Pərviz HACILI**



## Tələbələrin Təhsil Tələbə Krediti Fondundan istifadə imkanlarına dair görüş

Ali təhsil müəssisəsində təşkil edilən görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edərək dövlətin təhsil sahəsində həyata keçirdiyi layihələrdən danışıb. Vurğulanıb ki, Təhsil Tələbə Kredit Fondu Prezident cənab İlham Əliyevin 17 iyun 2021-ci il tarixli Fərmanı ilə təsis olunub və bu fondun yaradılması ölkəmizdə təhsilə dövlət qayğısının ən bariz nümunələrindən biridir. O, çıxışında TTKF-in tələbələr üçün yaratdığı imkanlar, ali təhsilə əlçatanlığın təmin edilməsi və təhsildə bərabər imkanların yaradılması kimi mühüm missiyalara xidmət etdiyini iştirakçıların diqqətinə çatdırıb.

Təhsil Tələbə Krediti Fondunun idarə heyətinin sədri Araz Paşayev fondun yaranma tarixi, məqsədi haqqında geniş məlumat verib. Bildirilib ki, fondun yaradılmasında əsas məqsəd əhalinin aztəminatlı təbəqəsindən olan şəxslərin təhsili üçün bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir.

Qeyd edilib ki, təhsil tələbə krediti olduqca mütərəqqi, gənclərin təhsilə əlçatanlılığının təmin olunmasına xidmət edən dövlət sənədidir.

Vurğulanıb ki, təhsil tələbə kreditinin növləri, tələbə krediti almaq üçün verilən tələblər, kreditdən istifadə hüququ, kreditin verilməsinə dair tələblər və tətbiq edilən güzəştlər müəyyən edilib. Təhsil tələbə kreditinin sosial və standart növləri mövcuddur.

Araz Paşayev əlavə edib ki, krediti almaq üçün tələbə girov, zamin, borcalan və s. heç bir öhdəliklə yüklənmir.

Görüşdə çıxış edən universitetin Mühasibat uçotu şöbəsinin müdiri Ülvi Baxışlı bildirib ki, ali təhsil ocağında 2021-2022-ci akademik tədris ilindən TTKF ilə bağlı komissiyanın tərkibi müəyyənləşdirilərək fəaliyyətə başlayıb və tələbələrlə görüşlər təşkil edilərək onların qeydiyyatına şərait yaradılıb. Belə ki, ötən müddət ərzində ümumilikdə 541 tələbə kreditlə bağlı müraciət edib ki, bunun 136 nəfəri sosial, 311 nəfəri isə standart olmaqla 447 tələbənin krediti rəsmiləşdirilib.

Diqqətə çatdırılıb ki, kreditlər veriləndə ilkin mərhələdə giriş balları nəzərə alınmaqla yüksək nəticə göstərilməsi ilkin şərtdir. Kredit məbləği birbaşa tələbəyə deyil, ali təhsil aldığı müəssisəyə verilir. Hər hansı səbəbdən götürülən kredit geri qaytarıla bilmədikdə tələbəyə möhlət hüququ da verilir.

Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

**Pərviz Hacılı**

## Zərövşən Babayevanın yeni tədris ilində 3 kitabı işıq üzü görüb

***Naxçıvan Dövlət Universitetinin müəllimi, pedaqoji elmlər doktoru Zərövşən Babayevanın “Biologiyanın tədrisi metodikası”, “Biologiyanın tədrisində yeni təlim texnologiyalarından istifadə”, “STEAM-XXI əsrin təhsili” kitablarının təqdimatı keçirilib.***



Tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev müəllifin elmi-pedaqoji yaradıcılığını yüksək qiymətləndirib. Bildirilib ki, Zərövşən Babayeva öz üzərində hər zaman işləyən dəyərli müəllimlərimizdəndir. Rektor qeyd edib ki, universitetin elmi mühiti, eyni zamanda biologiyanın tədrisi istiqamətində öz sanbalı ilə seçilən kitablar elmiliyi və dəyəri ilə təqdirəlayiqdir.

Təqdimatda Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bəhruz Məmmədov, NDU Elmi Kitabxanasının direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova, biologiya üzrə fəlsəfə doktoru, dosent Fəridə Səfərova, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Taleh Xəlilov çıxış ediblər.

Çıxış edənlər müəllifin gərgin əməyi nəticəsində ərsəyə gələn hər üç kitab haqqında öz fikirlərini səsləndiriblər. Çıxışlarda bildirilib ki, “Biologiyanın tədrisi metodikası” kitabı ali məktəblərin pedaqoji profilli biologiya müəllimliyi ixtisası üzrə bakalavr və magistr dərəcəsi üçün dərslik kimi nəzərdə tutulub. Kitabda biologiyanın tədrisi metodikası fənninin səmərəli təşkili üçün istifadə olunan metodlar, üsullar, yeni texnologiyaların tətbiqi, müasir təlimlərdən interaktiv və konstruktiv təlimin prinsipləri ətraflı verilib. Dərslik ali və orta ümumtəhsil məktəbi müəllimləri üçün zəngin material, yol göstəricisi, biologiya və yaxın təbiət elmlərində təhsil alan tələbələr üçün tədris materialı kimi hazırlanıb. Həmçinin dərslik müasir təhsil standartları, müasir dərs modellərini, təlim metodları, üsulları öyrənmək istəyən gənc tədqiqatçılar üçün də zəngin mənbədir. Dərslik ali və orta məktəblərdə biologiyanın tədrisi sahəsində müasir metod və vasitələrin, İKT-dən istifadə imkanlarını özündə əks etdirməsi ilə əhəmiyyət kəsb edir.

“STEAM-XXI əsrin təhsili” adlı dərs vəsaitində isə STEAM tədris metodunun mahiyyəti, tədrisdə tətbiqi zərurəti, qarşıda duran vəzifələr, həlli, vacib problemlər, STEAM üzrə dünya təcrübəsi, STEAM metodu ilə keçirilən dərs, praktik iş nümunələri verilib. Kitabda ali və orta məktəblərdə STEAM metodu ilə biliklərin öyrədilməsinin metod, üsul və vasitələrindən səmərəli istifadə imkanları, qiymətləndirmə meyarları verilib. Dərs vəsaitində hazırkı dövrdə interaktiv, konstruktiv təlim əsasında dərslərin fənlərarası əlaqə ilə təşkili zamanı İKT və müxtəlif təlim texnologiyalarından, müxtəlif metodlardan yerində və düzgün istifadə yollarından bəhs edilib. Həmçinin kitabda təbiət fənlərində fənlərarası əlaqə imkanları ilə yanaşı, elmi dünyagörüşün mahiyyəti, formalaşdırılması, layihə əsaslı STEAM metodu ilə fənlərarası inteqrasiyanın perspektivləri göstərilib.

Əsərdə mövzu ilə bağlı elmi-metodik ədəbiyyat təhlil edilib, yeni təlim texnologiyaları və onların mahiyyəti, tədrisdə tətbiqi imkanları, ali və orta məktəblərdə təhsilin informasiyalaşdırılmasının səviyyəsi araşdırılıb, YTT-nin biologiyanın tədrisinə gətirdiyi üstünlüklər və qarşıda duran vəzifələr dəqiqləşdirilib, maddi-texniki bazanın pedaqoji prosesdə rolu, multimedialı təqdimatlarda cədvəl və sxemlərdən istifadənin mənimsəməyə təsiri, formatı müəyyənləşdirilib. Monoqrafiya müvafiq ali məktəblərin müəllim və tələbələri, orta məktəb müəllimləri, gənc tədqiqatçılar, pedaqoji sahədə çalışan rəhbər işçilər, həmçinin digər mütəxəssislər üçün nəzərdə tutulmuş, dəyərli mənbə, dərs vəsaitidir.

Sonda müəllif hər üç kitabının təqdimatının təşkil edilməsində göstərilən dəstəyə görə öz minnətdarlığını ifadə edib.

## Fizika ixtisasının ilk məzunları Naxçıvan Dövlət Universitetində olublar



Naxçıvan Dövlət Pedaqoji İnstitutunun Fizika ixtisası üzrə ilk məzunları Naxçıvan Dövlət Universitetində olublar. Universitetin rektoru Elbrus İsayev onlarla görüşüb.

50 il bundan öncə Fizika ixtisasını bitirən məzunları salamlayan rektor onları uzun illərdən sonra ali təhsil ocağında birlikdə görməkdən sevinc və qürur duyduğunu bildirib. Ali təhsil müəssisəsinin keçdiyi inkişaf yolundan söhbət açan Elbrus İsayev universitetin genişlənən beynəlxalq əlaqələri, inkişaf perspektivləri barədə qonaqlara ətraflı məlumat verib.

Məzunlar arasında sıx əlaqələrin qurulmasının çox əhəmiyyətli və faydalı nəticələr verəcəyini bildirən rektor bu cür mənəvi-əxlaqi dəyərlərin qorunaraq gənc nəslə ötürülməsinin vacibliyini vurğulayıb. Səmimi görüşə və söhbətə görə qonaqlara təşəkkür edən Elbrus İsayev bu ənənənin davamlı xarakter alacağına əminliyini ifadə edib.



Təcrübə və məzunlarla iş bölməsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim Aynurə Seyidovanın təşkilatçılığı ilə keçirilən görüşdə iştirakdan məmnun olduqlarını qeyd edən məzunlar universitetdə son dövrlər gedən inkişafı yüksək dəyərləndiriblər. Tələbəlik illərini, müəllimlərini yad edib, xoş xatirələrini bölüşən məzunlar qayğısız gənclik illərinə qayıtdıqları, ehtiramla xatırlandıqları, onlara sevinc və fərəh dolu gün yaşatdıqları üçün tədbirin təşkilatçılarına minnətdarlıqlarını bildiriblər.

Sonra gələcəyin fizikləri onları doğma fakültələrinin önündə gül-çiçəklə qarşılayıblar. Məzunlar dərs keçdikləri fakültədə yenidən eyni parta arxasında əyləşərək 50 il bundan öncə onlara dərs deyən müəllimlərini bir daha dinləyiblər.

Fizika-riyaziyyat fakültəsinin dekanı, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov müəllimlərini salamlayıb və xoş xatirələrini dilə gətirib.

Fizika-riyaziyyat fakültəsində laboratoriya və kabinələrdə olan məzunlar daha sonra universitetin Sosial mərkəzində çay süfrəsi ətrafında davam edən səmimi söhbət zamanı tələbəlik illərini yad ediblər.

**Səadət Əliyeva**

## “Ədəbiyyat” qəzetinin baş redaktoru Azər Turan tələbələrlə görüşüb

***Tədbiri giriş sözü ilə açan universitetin Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarov Azər Turan haqqında məlumat verərək qeyd edib ki, yaradıcılığa 1980-ci illərin əvvəllərində başlayan tənqidçi, publisistin ilk yazıları "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunub. Qeyd edilib ki, publisistin 40-dan artıq kitabı nəşr olunub.***

Diqqətə çatdırılıb ki, Əli bəy Hüseynzadə və Hüseyn Cavid irsinin tədqiqatçısı kimi tanınan Azər Turan əsasən, türk düşüncə tarixini, türk ədəbiyyatında modernizm cərəyanı və onun təzahür şəkillərini tədqiq edib. Vurğulanıb ki, Azər Turan Azərbaycan Respublikası Prezidentinin 28 oktyabr 2000-ci il tarixli Sərəncamı ilə Prezident Təqaüdünə layiq görülüb.

Azərbaycan Universitetinin Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Yazıçılar Birliyinin birgə təsis etdiyi "Hüseyn Cavid" mükafatı laureatı olan Azər Turan eyni zamanda 1997-ci ildən Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü olub. “Ölüm süvarisi”, “Hüsni-Xuda şairi Hüseyn Cavid”, “Əbədi Turan”, “İrfan çobanı”, “Cavid əfəndi”, "Turan Cavidin son söhbəti, son yaşantıları, son günü" və. s kitabları Cavid əfəndinin milli ədəbiyyatşünaslığın dəyərli tədqiqatlarından hesab olunub.



Azərbaycan Respublikası Əməkdar Mədəniyyət İşçisi, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, “Ədəbiyyat” qəzetinin baş redaktoru Azər Turan yaradıcılığı haqqında müfəssəl məlumat verib. Publisist qeyd edib ki, “Hüseyn Cavid yaradıcılığının ədəbi-fəlsəfi qaynaqları" mövzusunda dissertasiya üzərində çalışıb.

Müəllif yaradıcılığı barədə səsləndirilən fikirlərə görə minnətdarlığını bildirib.

Müəllim və tələbələrin sualları cavablandırılıb.

**Səbinə Elxanqızı**
**Jurnalistika ixtisası üzrə II kurs tələbəsi**

## Məmməd Arazın 90 illik yubileyi ev muzeyində qeyd olunub



Şairin ev muzeyində keçirilən tədbiri giriş sözü ilə açan Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarov Məmməd Araz yaradıcılığının incə məqamlarından söz açıb. Qeyd edilib ki, Məmməd Araz Azərbaycan ədəbiyyatında çoxcəhətli və zəngin ədəbi irsinə, sənətkarlıq qüdrətinə görə özünəməxsus yeri və mövqeyi olan görkəmli söz ustadıdır. “Məni şeirimdə gəz bir insan kimi, Qəlbimdə nə varsa ona demişəm. Anadan-bacıdan gizlətdiyimi, Kağızdan, qələmdən gizlətməmişəm”, – deyən şair səmimi və zəngin bir yaradıcılığa malik olub.

Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim Nadir İsmayılov Məmməd Araz yaradıcılığında mənəviyyat mövzusunda çıxış edib. Bildirilib ki, Şair düşüncələrini sırf, xalis bəşəri-fəlsəfi səpkidə qələmə alıb. Görkəmli söz ustadı Məmməd Arazın sənət dünyasında vətən müqəddəsliyi, xalq məhəbbəti, el həqiqətləri bədii yaradıcılığın nüvəsində dayanır. Vurğulanıb ki, Məmməd Araz şeirinin hər sətri, hər misrası, hər detalı vətən sevgisini ifadə edir. Onun “Vətən mənə oğul desə”, “Ayağa dur, Azərbaycan!”, “Azərbaycan-dünyam mənim” və s. şeirləri dillər əzbəri olub.

Muzeyin direktoru tədbiri yüksək qiymətləndirib və təşkilatçılığa görə təşəkkür edib.

Sonda tələbələrin bədii qiraətləri dinlənilib.

# “Asan İnnovativ İnkişaf Mərkəzi” nin idarə heyəti Naxçıvan Dövlət Universitetində olub



*“Asan İnnovativ İnkişaf Mərkəzi”nin direktoru Aysel Cəbrayılova, “İnsight House” kollecinin təsisçisi Könül Əliyeva NaxçıvanMuxtar Respublikasına səfər çərçivəsində Naxçıvan Dövlət Universitetində olublar.*

“Asan İnnovativ İnkişaf Mərkəzi”nin direktoru Aysel Cəbrayılova qeyd edib ki, mərkəzin əsas məqsədi qabaqcıl ASAN təcrübəsini, innovativ və yeni təlim metodlarını tətbiq etməklə ölkəmizdə müxtəlif özəl və dövlət orqanlarında kadrların peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə müsbət töhfələr verməkdir. Bildirilib ki, mərkəzin əsas missiyası innovativ təşəbbüskarlıq ruhunu və startap ekosistemini inkişaf etdirmək, insanları fərqli düşünməyə təşviq edən bir mühit yaratmaq, öz innovativ bizneslərini inkişaf etdirmək üçün təşəbbüskarlara dəstək görməkdir.

`Görüşdə özəl sektorun inkişaf etdirilməsi, innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsi istiqamətində yeni texnologiyaların tətbiqi, texniki dəstək və İT xidmətlərinin verilməsi, müxtəlif növ tədbirlərin keçirilməsi və yeni əməkdaşlıqların qurulması barədə ətraflı məlumat verilib.

“İnsight House” collecinin təsisçisi Könül Əliyeva öz növbəsində səmimi qəbul üçün rektora minnətdarlığını bildirib. Könül Əliyeva marketinq, yumşaq bacarıqlar, vətəndaş məmnuniyyəti, emosiyaların idarə olunması və digər mövzulara toxunub.

Universitetin rektoru Elbrus İsayev qonaqları salamlayıb. Rektor universitetin mövcud şəraiti, beynəlxalq əməkdaşlıq məsələlərində qazanılan uğurlar, gələcək inkişaf strategiyası haqda danışıb.

Elbrus İsayev texnopark, elmi-tədqiqat, informasiya təhlükəsizliyi, akademik təlimlər, müasir yanaşmalar, komanda şəklində işləmək bacarığı və digər mövzular üzrə birgə əməkdaşlığın səmərə verəcəyinə əminliyini ifadə edib. Görüşdə qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafı istiqamətində müəyyən mövzulara toxunulub, gələcək perspektivlər müəyyənləşdirilib.

# “Sağlam gənclik-sağlam gələcək” layihəsi çərçivəsində şagirdlərlə görüş



Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin kollektivi “Sağlam gənclik-sağlam gələcək” layihəsi çərçivəsində Naxçıvan şəhər 7№li tam orta məktəbdə olublar. Fakültənin ənənəvi olaraq keçirdiyi “Sağlam ol” layihəsinin davamı olaraq bu tədbir gənclərə sağlam həyat tərzinin aşılanması və əhali arasında səhiyyə maarifi işinin təşkili məqsədilə təşkil olunub.

Tədbiri giriş sözü ilə açan Naxçıvan şəhər 7№li tam orta məktəbin direktoru Aygün Hüseynova qonaqları salamlayaraq təşkilatçılara öz minnətdarlığını bildirib. Qeyd edilib ki, bu cür mariflәndirici tədbirlərin keçirilməsi həm tələbələr, həm də şagirdlər üçün böyük önəm kəsb edir.

Tibb fakültəsinin dekanı, tibb üzrə fəlsəfə doktoru, layihənin rəhbəri İlhamə Mustafayeva qeyd edib ki, görüşün məqsədi tibb sahəsinə marağı olan şagirdlərin gələcəkdə bu sahədə təhsil almaq üçün onları həvəsləndirmək, eyni zamanda hər kəsin bilməli olduğu ilk tibbi yardım barədə ətraflı məlumatlar verməkdən ibarətdir. “Sağlam ol” layihəsinin müəllifi, Təməl tibb fənləri kafedrasının baş müəllimi Bəxtiyar Hüseynov müxtəlif ekstremal şəraitlərdə – təbii fəlakətlər, qəzalar, yanğınlar və.s zamanı ilk tibbi yardım göstərilməsinin vacibliyini vurğulayıb.

“Ümumi təbabət və klinik fənlər” kafedrasının müdiri, dosent Gültəkin Əliyeva təşkilatçılara minnətdarlıq edərək bu kimi tədbirlərin keçirilməsinin insan sağlamlığı üçün dəyərini vurğulayıb. Gültəkin Əliyeva şagirdlərə kitablar hədiyyə edib.

Sonra “Kliniki ölüm zamanı, təxirəsalınmaz yardım”, “Qanaxmalar”, “Yuxarı tənəffüs yollarına yad cismin düşməsi”, “Sınıqlar”, “Məktəblinin sağlam qidalanması”, “Uşaqlarda artıq çəki və piylənmə”, “Fiziki aktivlik”, “Uşaqlarda şəkərli diabet” kimi mövzularda tələbələ və rezidentlərin təqdimatı olub.

# Naxçıvan Dövlət Universiteti “Erasmus +” proqramının DIRNA layihəsində



*Naxçıvan Dövlət Universiteti beynəlxalq əməkdaşlıq layihələri çərçivəsində Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən Erasmus + proqramının “Azərbaycanda institusional repozitoriyalar (elektron arxivlər) şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişaf etdirilməsi” (DIRNA) layihəsinə qoşulub.*

Xəzər Universitetinin koordinatorluğu və ev sahibliyi ilə keçirilən açılış tədbirində Azərbaycan və Avropa ali təhsil müəssisələrindən nümayəndələr iştirak edib. Qeyd edək ki, layihəyə 8 Azərbaycan və 3 Avropa universiteti daxildir. Azərbaycandan olan tərəfdaş ali təhsil müəssisələri Xəzər Universiteti (koordinator), Naxçıvan Dövlət Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Avropadan olan tərəfdaş ali təhsil müəssisələri isə İzmir Yüksək Texnologiya İnstitutu (Türkiyə), Jyvaskyla Universiteti (Finlandiya), L’Aquilla Universitetidir (İtaliya).

2023-2026-cı illəri əhatə edən layihənin məqsədi tərəfdaş Avropa universitetlərinin təcrübə və standartlarının öyrənilməsi və tətbiqi əsasında keyfiyyətli elmi tədqiqatın üzə çıxması və idarə olunmasını təkmilləşdirməklə yanaşı tədqiqat nəticələrinə açıq çıxışı dəstəkləmək, ölkə daxilində ali təhsil müəssisələri arasında elmi əlaqə və koordinasiyanı təşviq və təşkil etməkdən ibarətdir.

Açılış tədbirində Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Əlaqələr Şöbəsinin müdiri İlahə Hüseynova və NDU Elmi Kitabxanasının direktoru Xumar Məmmədova iştirak ediblər. Tədbirdə NDU-nun Beynəlxalq Əlaqələr Şöbəsinin müdiri İlahə Hüseynova geniş təqdimatla çıxış edib.

İki gün davam edən görüşdə tərəfdaş universitetlərin layihədəki rolu və onların fəaliyyəti, layihənin inkişafı ilə bağlı nəzərdə tutulan məsələlər müzakirə edilib.

**M.DÜNYAMALIYEV**

# “Stipendium Hungaricum in Azerbaijan” layihəsi çərçivəsində tələbə və müəllim heyəti ilə görüş



Görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayıb, belə bir əhəmiyyətli tədbirin məhz NDU-da keçirilməsinin önəmini vurğulayıb. Diqqətə çatdırılıb ki, artıq tələbələrin xaricdə təhsil alma arzusu artır, yerli tələbələrimizin də seçimləri sırasında Macarıstanda təhsil geniş yer tutur. Rektor Macarıstanda təhsilini başa vurub, geri qayıdan məzunların ölkəmizdə böyük uğurlar əldə etdiyini vurğulayıb. Elbrus İsayev layihənin uğurlarından bəhs edərək “Stipendium Hungaricum” təqaüd proqramı çərçivəsində təhsil alaraq məzun olan tələbələrin hər iki ölkə arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinə də öz töhfəsini verdiyini bildirib.

Görüşdə Macarıstanın Azərbaycandakı səfirliyinin təhsil və mədəniyyət üzrə nümayəndəsi Monika Felföldi çıxışı zamanı “Stipendium Hungaricum” təqaüd proqramı barədə ümumi məlumat verib. Bildirilib ki, Oktyabrın 4-dən başlayaraq 20-dək davam edəcək layihə Macarıstanın “Stipendium Hungaricum” təqaüd proqramının 10-cu ildönümünə həsr olunub. Qeyd edilib ki, hazırda 23 min tələbənin təhsil aldığı, indiyədək 10 min tələbənin məzun olduğu və 90-dan çox ölkədə təhsil imkanı yaradan proqram İngilis dili ilə yanaşı Macar dilində də tələbələrə təhsil şəraiti yaradır.

Sonra Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin əməkdaşı Mehriban Fətullayevanın Macarıstanda Hökumətlərarası Təqaüd Proqramı (HTP) çərçivəsində təhsillə bağlı çıxışı dinlənilib.

Azərbaycan Macarıstan Məzunları İctimai Birliyi (AHAU) idarə heyəti sədri, Azərbaycanlı Tələbələr və Məzunlar Platforması (ASAP) idarə heyətinin üzvü, “”Stipendium Hungaricum” Proqramı məzunu, İngiltərənin BP şirkətində aparıcı mütəxəssis-Günay Bayramova “Macarıstanda təhsil, həyat, fürsətlər və inkişafa aparan Yol” mövzusunda iştirakçılara məlumat verib.

Llayihə Macarıstanda təhsil almış uğurlu məzunların ölkənin müxtəlif bölgələrində fəaliyyət göstərən universitetlərin tələbələri ilə görüşünü təşkil etmək, təcrübə və karyera imkanlarını regionlardakı universitetlərdən olan tələbələrlə bölüşmək və HTP çərçivəsində Macarıstanda təhsil barədə məlumatlandırma işini aparmaq məqsədi daşıyır.

HTP çərçivəsində Macarıstanda təhsil barədə daha ətraflı məlumatı ***htp.edu.az*** səhifəsindən əldə etmək mümkündür.

**Pərviz HACILI**
**Tv, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı**

# Ali təhsil ocağında ilk dəfə olaraq SAT imtahanı keçirilib



Naxçıvan Dövlət Universitetində yerləşən, Amerika Birləşmiş Ştatlarında mərkəzləşmiş College Board nəzdində rəsmi fəaliyyət göstərən Naxçıvan regional SAT Qeydiyyat və İmtahan mərkəzində ilk imtahan uğurla başa çatıb.

İmtahan mərkəzinin əməkdaşlarından ibarət heyətin nəzarəti, texniki dəstək və şəffaflıq şəraitində uğurla başa çatdırılan imtahan prosesindən şagirdlər öz razılıqlarını ifadə ediblər.

Qeyd edək ki, Naxçıvan regional SAT qeydiyyat və imtahan mərkəzi əvvəllər imtahan vermək üçün uzaq məsafələri qət edərək xarici ölkələrə üz tutan şagird və ailələrə dəstəyə və istedadlı gənclərimizin xaricdə təhsil arzularını reallaşdırmağa xidmət edir. Mərkəzin fəaliyyətə başladığı qısa müddət ərzində onlarla şagirdin müraciəti nəzərə alınaraq konsultasiya xidməti də göstərilib.

Məlumat üçün onu da bildirək ki, mərkəz paytaxt Bakı və digər bölgələrdən olan tələbatı nəzərə alaraq növbəti aylarda da SAT Digital imtahanlarının keçirilməsinə davam edəcəkdir.

**Məmmədbağır DÜNYAMALIYEV**

# Naxçıvan IELTS Mərkəzinin koordinatorundan daha bir uğur




Naxçıvan IELTS Mərkəzinin koordinatoru Bayram Əliyev Cambridge orijinal CELTA sertifikatını əldə edib. Bayram Əliyev bu barədə sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Azərbaycanda ümumiyyətlə CELTA sertifikatlı müəllim sayı çox azdır. Naxçıvanda isə yoxdur. Əlbəttə CELTA mənə imkan verir ki, dünyanın istənilən yerində işləyim. Sadəcə mən Naxçıvan təhsilinə xidmət etmək istəyirəm. Bilirəm ki, növbəti illərdə Naxçıvanda ciddi uğurlar qazanmış şagirdlər və tələbələr yetişdirmək mümkün olacaq."

Qeyd edək ki, Bayram Əliyev kursu, iştirak edənlərin (iştirak etmək üçün minimum C1-IELTS 7.0 balı tələb edilir) sadəcə 15 faizinin əldə etdiyi Grade B ilə bitirib.

Bayram Əliyevi CELTA sertifikatı alması münasibətilə Naxçıvan Dövlət Universitetinin kollektivi adından təbrik edirik!

# Naxçıvandan Şimali Kiprə aparan yaradıcılıq yolu

***Azərbaycan xalqını dövrün keşməkeşli, çətin sınaqlarından çıxarmağı bacarmış bugünkü müstəqil Azərbaycanın xilaskarı, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il "Heydər Əliyev İli" kimi tarixə düşəcək. Görkəmli liderin əziz xatirəsinə həsr olunmuş 100 illik yubiley tədbirləri ölkə sərhədlərini aşaraq dünyanın bir çox ölkəsində yüksək səviyyədə qeyd olunur. Bu baxımdan gənc rəssam Aidə İbrahimovanın Şimali Kipr Respublikasında baş tutan rəsm sərgisinin əhəmiyyətini də vurğulamaq lazımdır.***



Naxçıvan Dövlət Universitetinin Rəngkarlıq ixtisası üzrə III kurs tələbəsi, "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuş, "Şərq qapısı" qəzetinin əməkdaşı Aidə İbrahimovanın rəsm sərgisi sənətsevərlər tərəfindən maraqla qarşılanıb. Məlumat üçün qeyd edək ki, 30-dan artıq müxtəlif janrlarda əsərlərin nümayiş edildiyi sərgidə Şimali Kipr Respublikasının prezidenti Ersin Tatar iştirak edib. Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən sərginin təssüratlarını isə gənc rəssamdan öyrənirik:

"İkigünlük səfər çox əhəmiyyətli, tarixi bir görüş oldu. Ümummilli liderin 100 illiyinə həsr olunmuş bu sərginin təşkili və reallaşması qürurverici idi. Çünki azərbaycanlı bir rəssam kimi əsərlərimlə ölkəmizi xaricdə təmsil etmək böyük məsuliyyət tələb edirdi. Həm də qürurluyam ki, bu cür tarixi əhəmiyyətli ildə – "Heydər Əliyev İli" çərçivəsində keçirilən silsilə tədbirlərdən biri də məhz bu sərgi oldu.

Sərgidən öncə Lefkoşa şəhərində Prezident Ersin Tatar bizi qəbul etdi. Görüş zamanı Türk dünyası xalqlarının bir-biri ilə tarixi bağlılığına söykənən əlaqələrin genişləndirilməsindən və xalqlarımız arasında humanitar, mədəniyyət, təhsil, idman sahələrində əməkdaşlığın genişləndirilməsi üçün imkanların mövcud olmasından məmnunluq ifadə edildi. Şimali Kiprin dövlət başçısı görüşdə iki dövlət arasındakı mədəni-siyasi əməkdaşlığın inkişafı istiqamətində mühüm tədbirlər görüldüyündən bəhs etdi. Prezident onu da qeyd edib ki, Kipr türkləri daim azərbaycanlıların yanında olub. Azərbaycanın da həmişə Türk dünyasının sıx birliyinə verdiyi töhfələrin davamlı xarakter daşıdığı və bundan sonra da bu amallara sadiq qalacağı vurğulandı.

Müsahibimiz deyir ki, görüşdən sonra axşam saatlarında Şimali Kiprin Girne şəhərində sərginin açılışı reallaşdı. Açılışda Prezident Ersin Tatar iştirak etdi və lenti kəsdi. Bu, bir gənc azərbaycanlı rəssam kimi mənə sonsuz sevinc və fəxarət hissi yaşatdı. Sərgilənən bütün əsərlərə baxılıb müzakirə edildi. Prezidentə bəyəndiyi əsərlərimdən birini – "Xanəgah türbəsi"nin rəsmini təqdim etdim. Onu da qeyd edim ki, Heydər Əliyev Beynəlxalq Mədəniyyət Mərkəzində baş tutan sərginin yüksək səviyyədə təşkilində Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin, xüsusilə də Cəmiyyətin sədri, həmyerlimiz Orxan Həsənoğlunun əməyi ayrıca vurğulanmalıdır. Görüşdə bizimlə birlikdə bir neçə həmyerlimiz də iştirak edirdi. Bu, azərbaycanlıların həmrəyliyinin, təəssübkeşliyinin bariz sübutu idi".

Aidə xanım qeyd edir ki, Şimali Kiprdə Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Respublikalarının bayraqlarının birgə dalğalandığını görmək qürurverici hadisə idi. Ölkə hüdudlarından kənarda qurum və təşkilatların həyata keçirdiyi möhtəşəm tədbirlərdən birinin də bu sərgi olması böyük iftixar hissi bəxş etdi. Nəinki Azərbaycan xalqı, bütün Türk dünyası Ümummilli liderə sonsuz ehtiram və saygı göstərir. Dövlət başçısı və digər rəsmi şəxslərin sərginin təşkili, açılışı və gedişatında yaxından iştirak etməsi, keçirilən tədbirin ölkə səviyyəsində işıqlandırılması bunun ən aydın təzahürü idi.

Gənc rəssam bundan sonrakı planlarını da bölüşdü: "Mənim üçün böyük motivasiya mənbəyi və təcrübə olan bu sərgini müxtəlif ölkələrdə daha da genişləndirilmiş formada reallaşdırmağı arzu edirəm. İlin sonuna kimi isə sərgiyə daxil olan əsərlərin sayını artırmaqla məmləkətimizdə də bu sərgini reallaşdırmağı planlayıram. Hər zaman istedadlı gənclərin fəaliyyətini dəstəkləyən, bizləri bu yolda tək qoymayan dövlətimizə minnətdarlığımızı bildiririk".

**Aysel YUSİFZADƏ**
**Jurnalistika ixtisası üzrə**
**IV kurs tələbəsi**

# NƏĞMƏLƏRDƏ YAŞAYAN ÖMÜR-ŞÖVKƏT ƏLƏKBƏROVA

Oktyabr ayının 20-si Azərbaycan musiqi sənətinin unudulmaz sənətkarlarından biri, öz məlahətli səsi, emosional və lirik ifaçılıq qabiliyyəti ilə seçilən Xalq Artisti Şövkət Ələkbərovanın doğum günüdür. 1922-ci ildə Bakıda anadan olan Şövkət xanım hələ uşaqlıqdan musiqi sədaları altında böyümüşdü. Onun atası sadə bir zəhmətkeş olsa da xalq musiqimizi, muğam və aşıq musiqisini sevən biri idi. Qardaşlarından biri tar, o biri isə qaval çalardı. Bir sözlə, onların evindən musiqi səsi kəsilməzdi. Anası Hökümə xanım isə qızlardan ibarət orkestrdə tar çalır, ara-sıra balaca Şövkəti də özü ilə məşqlərə aparırdı. Kiçik yaşlarından qızının musiqiyə olan həvəsini görən anası onu kamança alətində çalmağı öyrənməsi üçün müəllim yanına göndərir.

Bir gün yenə orkestr məşqlərinin birində dirijor Şövkətə oxumağı təklif edir və Şövkət oxuyur. O gündən sonra Şövkətin ilk səhnə addımları başlayır. 1937-ci ildə Bakıda keçirilən özfəaliyyət kollektivlərinin müsabiqəsində Şövkətin səsinin gözəlliyi hər kəsi valeh edir. Bu zaman Üzeyir Hacıbəyli, Bülbül, Səid Rüstəmov kimi sənətkarların qarşısında çıxış edən Ş.Ələkbərova oxuduğu "Qarabağ şikəstəsi" ilə böyük rəğbət qazanır və dahi Üzeyir bəy onu filarmoniyanın xorunda oxumağa dəvət edir. O dövrdə Üzeyir Hacıbəylinin təşəbbüsü ilə 80 nəfərdən ibarət Azərbaycan Dövlət Xoru yaradılmışdı ki, bu da Azərbaycan mədəniyyəti üçün böyük uğur demək idi. Üzeyir bəyin dəvətindən sonra həmin o 80 nəfərin içinə 15 yaşlı Şövkət Ələkbərova da daxil oldu.

Daha sonra 1938-ci ildə Şövkəti filarmoniyaya yanına çağıran Üzeyir bəy onun səsinin gözəlliyini xüsusi vurğulayaraq Mahnı və Rəqs ansamblının solisti olmağı təklif edir. Bu təklif gənc xanımı göylərə uçurur və beləliklə Şövkət Ələkbərova ömrünü həmişəlik sənətə bağlayır. 1938-1945-ci illərdə bu doğma ocaqda çalışan Şövkət xanım 1945-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi fəaliyyətini davam etdirir. Deməli Şövkət xanımın sənətdə xeyir-duasını dahi bəstəkarımız Üzeyir Hacıbəyli vermişdi. Elə təsadüfi deyil ki, Şövkət xanım Üzeyir bəyə "Üzeyir dayı" deyirdi. Ümumiyyətlə Üzeyir bəyin himayəsi altında təhsil alan gənclərin hamısı demək olar ki, dahi şəxsiyyətdən təkcə sənətə dair biliklər əldə etmirdilər, həm də vətənpərvər ruhlu, vicdanlı, qayğıkeş insan olmağı da öyrənirdilər. Vaxtilə Üzeyir bəy tələbələrini evinə çağırar, onlara dərs keçər, daha sonra onları yedirib-içirib, üstəlik ciblərinə pul qoyaraq yola salırdı. Elə Şövkət xanım da bu cür tərbiyə aldığına görə öz tələbələrinə eyni qayğı ilə yanaşır, ana nəvazişi göstərir, daim tələbələrin problemlərini öyrənib onlara köməklik edirdi.



Şövkət xanım son dərəcə təsirli oxuyurdu. Xarakterində olan kübarlıq onun ifa üslubuna da sirayət edirdi. Şövkət xanım hansı janrda oxumasından asılı olmayaraq ifa etdiyi mahnını yüksək sənət səviyyəsinə qaldırırdı. Hətta bəstəkarlar etiraf edirlər ki, Şövkət xanım onların mahnılarına bəzən dəyişiklik edirdi, bu isə əlbəttə mahnının xeyrinə olurdu. Onun ifasından, səsindən, sənətindən çox danışmaq olar. Özünəməxsus sənət üslubu ilə seçilən Şövkət Ələkbərova bir çox Azərbaycan bəstəkarlarının – Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Cahangir Cahangirov, Tofiq Quliyev, Emin Sabitoğlu, Ramiz Mirişli, Səid Rüstəmov və adlarını sadaladığımız 10-larla görkəmli şəxsiyyətlərin əsərlərinin əvəzedilməz ifaçısı olmuşdur. Muğamların mahir ifaçısı olmaqla yanaşı, həm xalq mahnıları və bəstəkar mahnılarını böyük şövqlə, ürəklə oxuyurdu. "Dərələr", "Bir könül sındırmışam", "Axşam mahnısı", "Qəmgin mahnı", "Söz olmasaydı", "Qaragilə", "Şuşanın dağları", "Dalğalar", "Qaragöz", "Hardasan", "Füzuli" kantatası və s. yüzlərlə gözəl əsərə öz nəfəsi ilə həyat vermişdir. Bir çox mahnıların ilk ifaçısı olan Şövkət Ələkbərova oxuduğu əsərlərə öz möhürünü vurmuşdur. Şövkət xanımın repertuarında xüsusi yer tutan, musiqisini Səid Rüstəmovun bəstələdiyi "Oxu, gözəl" adlı mahnının sözlərini şair Səməd Vurğun məhz ona ithaf etmişdir:

*Can evimə sığışmayan arzular*
*Bir dünyada neçə dünya arzular?*
*Məhəbbətin nə ilki, nə sonu var*
*Oxu, gözəl, oxu, gözəl, qoy səsin*
*Ürəyimdə kaman kimi titrəsin…*

Şövkət xanım zahirən olduqca gözəl xanım idi. Bəzən insanın taleyi onun zahiri görkəmi qədər gözəl olmur. Gənclik dönəmi ikinci dünya müharibəsinin qanlı-qadalı illərinə təsadüf edən Şövkət xanımın üç qardaşı ön cəbhədə döyüşməyə gedir, onlardan Paşa və Bağır geri qayıtsalar da Ələkbər müharibədə həlak olur. Qardaşının yoldaşı da dünyasını dəyişəndən sonra onların qızı körpə Validəni öz övladı kimi böyüdüb, boya-başa çatdırır Şövkət xanım. Validə üçüncü sinifdə oxuyarkən məktəbdə öyrənir ki, Şövkət xanım onun anası deyil, bu zaman Şövkət xanım ona "Qızım, düzdür, mən sənin əslində bibinəm, amma səni anan kimi çox istəyirəm, mənim doğma balamsan" deyir.

Onun ailə həyatı çox ağır olmuşdur. İki dəfə ailə quran Şövkət xanımın heç bir evliliyi ona xoşbəxtlik verə bilmir. Birinci nikahından qızı Natella dünyaya gəlir. Hər şey o qədər mükəmməldi ki... Ancaq onun bu xoşbəxliyi uzun surmur. Həyat yoldaşı hərbi həkim idi. Müharibəyə gedir və bir daha geri dönmür. İkinci dəfə ailə quran Şövkət xanımın bu evlilikdən Bəşir adlı oğlu anadan olur. Bu xöşbəxlik də ona çox görülür. Bir neçə il sonra ikinci həyat yoldaşı – rejissor Lətif Səfərov intihar edir. Qeyd edək ki, Lətif Səfərov istedadlı rejissor idi. Azərbaycan kinosunun ən gözəl nümunələrindən olan "Bəxtiyar", "Qızmar günəş altında", "Leyli və Məcnun" və s. kimi filmlər məhz onun rejissorluğu ilə ekranlaşdırılmışdır. Hələ gənc yaşlarından vərəm xəstəliyindən əziyət çəkən Lətif Səfərov 43 yaşında canına qəsd edir. Onun ölümü ilə bağlı bir neçə söz söhbət gəzirdi. Deyilənə görə xəstəlik onu həyatdan bezdirir və o, buna görə həyatına son qoyur. Ancaq onun intiharına dair başqa bir versiya da dillərdə dolaşırdı: rejissor Lətif Səfərov Şövkət xanımı o qədər sevir və qısqanırmış ki, onun əli ilə ölmək istəyir. Buna görə də ov tüfənginin tətiyini iplə qapının dəstəyinə bağlayır. Şövkət xanım qapını açmaq istəyəndə tətik çəkilir və Lətif Səfərov həyatını itirir.

Bu cür acılar çəkən Şövkət xanım bir də övladı ilə sınanır həyatda. Qızı Natella da cavan yaşında xərçəng xəstəliyindən dünyasını dəyişir. Qızının ölümündən sarsılan Şövkət Ələkbərova onun vəfatından sonra bir daha mahnı oxumur... Ömrünün 70-ci qışında həyatla vidalaşan Şövkər Ələkbərova 7 fevral 1993-cü ildə vəfat edir. Unudulmaz sənətkar Bakıdakı Fəxri Xiyabanda dəfn edilir.

Şövkət Ələkbərova artıq 30 ildir aramızda yoxdur. İllər, əsrlər keçsə də musiqimizin Şövkət zirvəsi hər zaman seviləcək, unudulmayacaq, ifa etdiyi mahnılar səsləndikcə Şövkət xanımı da yaşadacaq...

**Günay MƏMMƏDOVA**
**"Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Uğurlu insan olmağın formulu nədir?

Hər bir insan həyatda daim yenilik axtarışındadır və nə isə əldə etmək üçün çalışır. Bu gün hər bir şey mümkündür. Demək olar ki, əsas məsələ bu məsələ artıq insanın öz iradəsi və göstərdiyi əzmdir. Həyatda irəliləmək üçün bir çox yollar insanın üzünə açıqdır. Sadəcə əsas məsələ bu şanslardan istifadə etməyi bacarmaq, çevik hərəkət etmək, çətin yollardan seçim edib ruhdan düşməkdənsə, özün üçün strateji hədəf tapıb daha çox çalışmaqdır. Uğurlu gələcək, rahat həyat üçün insan daim fərqliliklərə üz tutmalı, özünü inkişaf etdirməlidir.

Bəzən insanlar monoton həyat tərzinin qurbanı olur və nələri qaçırdıqlarının fərqində olmurlar. Yalnız iki təsəlli ilə özlərini sakitləşdirirlər: 1) Onun bəxti var imiş; 2) Onsuz da mən bunu bacara bilməzdim...İnsan hər şeyi bacarar. Əsas insanın özünə inamı və bir qədər də iradəsi vacibdir.

Bunun, ümumiyyətlə bu fikirlərin düz olduğunu bir çox hadisələr də təsdiqləyir. Nümunə olaraq Hacı Zeynalabdin Tağıyevi göstərmək ən düzgün seçim olar. XXI əsrdə onun adı hələ də yad edilir, gələcək nəsillərə də böyük Azərbaycan xeyriyyəçisi kimi tanıdılır. Uşaqlığının necə çətinliklərlə keçdiyi, ailəsinə uşaq olmasına baxmayaraq daim əlindən gəldiyi qədər, hətta bundan artıq yardım göstərməyə çalışmış Zeynalabdin bəy, ailəsini firavan yaşadacağına inanırdı. Bəlkə də həmin gün o, yoldaşlarının sözlərinə əhəmiyyət verib bu işi yarımçıq qoysaydı, həyatı daha da çətin olmuşdu. Amma onun öz fikrinə güvəni, içindəki ümidi və inadkarlığı onu yanıltmadı. Çünki onun ailəsi tək atası, anası yox Azərbaycan xalqı idi. Onun uğuru Azərbaycanın uğuru idi. Zeynalabdin daim çalışırdı ki, xalqını maarifləndirsin, cəhalətdən qurtarsın. İlk qızlar məktəbi 1901-ci ildə Tağıyevin təşəbbüsü ilə tikildi. Bu Azərbaycanın inkişafı üçün atılmış ən ciddi və düzgün addım idi.

Uğurlu insan olmaq o qədər də asan deyil. Bunun düşməni, zərbə vurmaq istəyəni, hətta öldürmək istəyəni var. Uğurlu insan olduğunuz an ətrafınızdakı insanlarda rəqabət, paxıllıq hissini də həmçinin oyatmış olursunuz. Heç bir insan dünyaya alim, dahi olaraq gəlmir. Bunlar insanın sonrakı həyatında qazandığı müvəffəqiyyətlərdir. Bir çox yazıçılarımız, şairlərimiz, dahi şəxsiyyətlərimiz də məhz öz həvəsi, seçdiyi peşəyə sevgisinə görə uğur qazanıb, uğurlu insana çevrilib.

Bir çox tarixi şəxsiyyətlərdən, məsələn:M.Füzuli, İ.Nəsimi. M.Ə.Sabir, M.Müşviq, Ə.Cavad kimi şəxsiyyətlərimiz buna baxmayaraq daim xalqın müdafiəçisi, ölkənin parlayan səsi olmuşdur. İnsanlar hər cür müxtəlif peşələrdə nailiyyət, uğur qazana bilərlər. Çingiz Mustafayev Azərbaycanın unudulmaz qəhrəmanıdır. 1992-ci ildə ölkənin yaşadığı faciə, dəhşətli fəlakət zamanı bu cür qəhrəman öz adını tarixə yazdı. Qəhrəman jurnalistimiz əsgərlərimizlə öz qələmi ilə birlikdə cəbhədə şücaətlə vuruşur, onlara daim dəstək olurdu. Bu cür qəhrəman insanlara malik ölkə olmaq qürurvericidir.

Uğurlu insan olmaq səbr, özgüvən, mübarizə tələb edir. İnsanlar özlərinin ən yaxşı həyata layiq olduqlarını başa düşdükdə isə yanlız bunun üçün çalışırlar. Əgər həyatınız ağır, dözülməz bir şəraitdə yaşanılmağa məhkumdursa, sizin bununla barışmağınız məcburi deyildir. Belə bir deyim var: "Ya yaşadığın mühiti dəyiş, ya da bu mühitə özünü uyğunlaşdır." Həyatda uğurlu insana, parlaq şəxsiyyətə çevrilmək üçün isə olduğunuz ətrafı və mühiti dəyişməlisiniz. Toplumun düşüncəsinə qarşı çıxmaq bəzən sizin haqsız olduğunuzu göstərməz. Hər bir insanın öz düşüncəsi onu bir yerə gətirib çıxarır. Uğurlu yol üçün baxış və həyat tərzinizi dəyişməlisiniz.

**Çinarə Həsənova**
**Jurnalistika ixtisası üzrə**
**I kurs tələbəsi**

# Universitet müəllimlərinin yubileyləri təşkil edilib





Naxçıvan Dövlət Universitetində Bədən tərbiyəsi və idman kafedrasının baş müəllimi Kifayət Hüseynovanın 65 illik yubileyi qeyd edilib. Bu münasibətlə baş tutan tədbirdə universitetin rektoru Elbrus İsayev bildirib ki, Kifayət müəllim uzun illər universitetdə çalışıb və ömrünün böyük hissəsini pedaqoji fəaliyyətə və peşəkar kadr hazırlığının təşkilinə həsr edib. Diqqətə çatdırılıb ki, öz bilik və bacarığı ilə işinin öhdəsindən müvəffəqiyyətlə gələn, hörmət qazanan yubilyar peşəkar müəllim kimi yadda qalıb.

Tədbirdə universitetin Pedaqoji fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev, Bədən tərbiyəsi və idman kafedrasının müdiri Əvəz Tağıyev, Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrasının müdiri Valeh Əlixanov çıxışlarında yubilyarı təbrik edərək ona xoş sözlər ünvanlayıb, hədiyyələr təqdim ediblər.

Sonda çıxış edən Kifayət Hüseynova təbriklərə və xoş sözlərə, göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

***

Hüquq fənləri kafedrasının müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudovun 60 illik yubileyi qeyd edilib. Tədbirdə rektor Elbrus İsayev yubilyara xoş arzularını çatdırıb.

Sonra Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı, dosent Yusif Hüseynov, "Fəlsəfə və sosial iş" kafedrasının dosenti, fəlsəfə üzrə elmlər doktoru Qərib Allahevrdiyev, "Hüquq fənləri" kafedrasının baş müəllimi Səfiyar Abışov, Beynəlxalq münasibətlər" kafedrasının müdiri, dosent Şamxal Məmmədov, "Hüquq fənləri" kafedrasının müəllimi Vaqif Qurbanov və qonaqlar yubilyarı təbrik edərək, ona xoş arzularını çatdırıblar və hədiyyələr təqdim ediblər.

# Əcnəbi tələbələrlə görüş



Görüşdə çıxış edən ali təhsil ocağının rektoru Elbrus İsayev çıxışında qeyd edib ki, muxtar respublikada tolerant mühitin formalaşması, xarici vətəndaşlara xüsusi diqqətlə yanaşmanın nəticəsidir ki, əcnəbi tələbələrin sayı hər il artmaqdadır. Universitetdə xarici tələbələr üçün yaradılan şəraitdən söz açan rektor diqqətə çatdırıb ki, universitetdə təhsil alan yerli tələbələrlə yanaşı əcnəbi tələbələrin də təhsil keyfiyyəti daim diqqət mərkəzində saxlanılır. Bunun nəticəsidir ki, bu il universitetdə təhsil alan əcnəbi tələbələrin sayının 2000 nəfərə yaxın olduğunu vurğulayıb.

Rektor bildirib ki, həmçinin xarici tələbələr universitetin ictimai-mədəni işlərində də fəallıq nümayiş etdirir, müxtəlif tədbirlərin, konsert proqramlarının hazırlanmasında yaxından iştirak edirlər.

Elbrus İsayev tələbələrə öz tövsiyyələrini çatdıraraq, yeni dərs ili münasibətilə onları təbrik edib.

Universitetin ümumi işlər üzrə prorektoru Xəyal Camalovun çıxışı dinlənilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Dövlət Universitetində təhsilin beynəlmiləlləşməsi istiqamətində islahatların aparılması, beynəlxalq əlaqələrin genişləndirilməsi, yeni əməkdaşlıqların qurulması, dünyanın bir sıra aparıcı universitetləri ilə ikili diplom proqramları üzrə kadr hazırlığının həyata keçirilməsi ilə bağlı ciddi addımlar atılıb. Eyni zamanda, tədris prosesinin təkmilləşdirilməsi, bu işdə yeni metod və texnologiyaların tətbiqi, NDU-nun dünyanın məşhur reytinq siyahılarında yüksək göstəricilərə malik ali təhsil müəssisələri arasında yer alması universitetdə oxumaq istəyən əcnəbi tələbələrin sayının artmasına səbəb olub. Diqqətə çatdırılıb ki, bütün bunlar müxtəlif hüquqların və vəzifələrin icrasını da özlüyündə gətirir.

Vurğulanıb ki, muxtar respublikaya təhsil almaq üçün gələn tələbələr, həmçinin ölkədə müvəqqəti yaşamaq hüququna malik olurlar. Eyni zamanda Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə vəsiqələrinin verilməsinə və müddətinin uzadılmasına görə dövlət rüsumu ödənilən zaman tələbələr üçün güzəştlər də tətbiq olunur.

Sonra universitetdə əcnəbi tələbələrlə bağlı keçirilən tədbirlərin videoçarxı nümayiş olunub.

Sonda əcnəbi tələbələrin sualları cavablandırılıb.

**Məmmədbağır DÜNYAMALIYEV**

# TƏLƏBƏLƏRİMİZİN UĞURLARI

## Universitetin magistrantından mühüm nailiyyət




Universitetin Fiziki tərbiyənin nəzəriyyəsi və metodikası ixtisaslaşması üzrə I kurs magistrantı Ariz Hüseynov Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən Dünya Döyüş Oyunlarının ("World Combat Games") kəmər güləşi yarışında 70 kq çəki dərəcəsində bürünc medala layiq görülüb.

**Məmmədbağır DÜNYAMALIYEV**
**NDU-nun Tv, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı**

## Tələbəmiz Prezident təqaüdünə layiq görülüb




***Ölkə Prezidenti cənab İlham Əliyev 18 oktyabr 2023-cü il tarixdə 2023–2024-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb***

Təqaüdçülər arasında Naxçıvan Dövlət Universitetinin Tibb ixtisası (tədrisi ingilis dilində) üzrə təhsil alan I kurs tələbəsi İnci Fərəcova da var. Tələbəmizi bu münasibətlə təbrik edir, ona təhsil həyatında böyük nailiyyətlər arzulayırıq.

## Naxçıvan Dövlət Universitetinin "Enactus" komandası Dünya Kuboku uğrunda mübarizəyə qatılıb




Dünyanın davamlı inkişafı üçün yeni nəsil təşəbbüskarların, biznes liderlərinin cəlb edilməsinə həsr olunmuş ən böyük beynəlxalq təşkilat olan "Enactus" Dünya Kuboku keçiriləcək.

Naxçıvan Dövlət Universitetinin "Enactus" komandasından verilən məlumata görə, "Enactus" Dünya Kuboku gələcək liderləri sahibkarlıq, innovasiya və iş prinsiplərinə cəlb etmək üçün 34 ölkənin 1700 şəhərində 72 mindən çox tələbəni özündə cəmləşdirir. Layihənin prioritet istiqaməti sosial sahibkarlıq bacarıqlarının inkişaf edilməsinə yönəlib. Bu məqsədlə "Enactus" platformasının növbəti Dünya Kuboku oktyabrın 16-dan 22-dək Niderland Krallığının Utrext şəhərində keçirilib.

Dünya Kuboku uğrunda gedəcək mübarizədə müxtəlif ölkələri təmsil edən gənclər sosial sahibkarlıq üzrə biznes layihələrini təqdim edəcəklər. Sözügedən tədbirdə Azərbaycanı Naxçıvan Dövlət Universitetinin "Enactus" komandası təmsil edib.

Qeyd edilib ki, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondunun və "Gənclərin Maarifləndirilməsinə Dəstək" İctimai Birliyinin dəstəyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının həyata keçirdiyi "Enactus" proqramı dövlət gənclər siyasəti çərçivəsində gənclər arasında sosial əsaslı sahibkarlıq fəaliyyətinin təşviqində mühüm rol oynayır. Azərbaycan "Enactus" proqramına üzv olan yeganə Cənubi Qafqaz ölkəsidir.

**Səadət ƏLİYEVA**

## Tələbələrimiz bizim qürur mənbəyimizdir



Tədqiqatçı-alim Fizzə Məmmədova və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 4-cü kurs tələbəsi Elsunə Əliyeva qatıldıqları kimya üzrə Beynəlxalq Erudit onlayn müsabiqəsində I yerə layiq görülərək, qızıl medal və diploma təltif olunublar.

Təbrik edirik!



Naxçıvan Muxtar Respublikası Ailə Qadın Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış çərçivəsində "Ən yaxşı əl işi" müsabiqəsində Sənətkarlıq-rəssamlıq nominasiyası üzrə Gülnar İsmayılova (Dizayn ixtisası). "Ən yaxşı əl işi" müsabiqəsinin dekorativ tətbiqi sənət nominasiyası üzrə Gülçöhrə Abbasova (TİM ixtisası) I yerə layiq görülüblər.

## Naxçıvan Dövlət Universitetində elmi-tədqiqat işlərinə həsr edilən konfranslar davam edir

NDU-nun Tarix-filologiya fakültəsində 2023-cü ildə yerinə yetirilmiş elmi-tədqiqat işlərinə həsr olunan hesabat konfransı keçirilib.

Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarov elmi konfransı açıq elan edib.

Universitetin Elm və innovasiyalar bölməsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Elnarə Allahverdiyeva universitet rəhbərliyinin elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılması istiqamətində apardığı siyasətin mahiyyəti barədə danışıb. “Elmi-tədqiqat işlərinin əsasında dayanan mühüm elmi nəticələr universitetin beynəlxalq reytinqlərdə göstəricilərinə öz müsbət təsirini göstərəcək” -deyə vurğulanıb.



Nəzərinizə çatdırıq ki, ali təhsil müəssisəsinin digər fakültələrində də elmi-tədqiqat işlərinə həsr edilən hesabat konfransları öz işini davam etdirir.

**Məmmədbağır Dünyamalıyev**
**NDU-nun Tv, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı**

## Tələbə jurnalistlərlə görüş



NDU Elmi Kitabxanasında Naxçıvan Televiziya və Radio Şurasının üzvü, tanınmış jurnalist Sara Əzimovanın rəhbərliyi ilə gənc jurnalistlərin, həvəskar fotoqrafların Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr etdiyi “Come to Nakhchivan” fotoalbomunun təqdimatı olub.

Tədbirdə Elmi Kitabxananın direktoru Xumar Məmmədovanın , “Şərq qapısı”qəzetinin baş redaktor müavini Məmməd Babayevin, Elmi Kitabxananın baş kitabxanaçısı Çinarə İsmayılovanın, layihə rəhbəri, jurnalist Sara Əzimovanın çıxışları dinlənilib.

Tədbir iştirakçıların suallarının cavablandırılması ilə davam edib.

## Yubiley ili münasibətilə Türkiyənin Bayburt Universitetində konfrans keçirilib



***Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə müəyyən olunan tədbirlər çərçivəsində Türkiyənin Bayburt Universitetində 15 ali məktəbin, o cümlədən, Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə V Sosial elmlər konfransı keçirilib.***

Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru, dosent Əşrəf Ələkbərov və həmin fakültənin “Beynəlxalq ticarət və menecment” kafedrasının müdiri dosent Cavadxan Qasımov beynəlxalq konfransda iştirak ediblər.

Konfransın plenar iclasında ilk olaraq təşkilat komitəsinin ardınca, qardaş ölkənin Bayburt, Kilis, Aralık, Fırat, Sivas Cumhuriyet Universitetlərinin rektorları və Azərbaycan Respublikasının Ankara Səfirliyinin Təhsil Müşaviri Nəsibə Nəsibova çıxış ediblər.

Sonra Bayburt Universitetinin dosenti Ramin Sadığın “Heydər Əliyev dövründə Azərbaycan”, Naxçıvan Dövlət Universitetinin əməkdaşları Əşrəf Ələkbərovun “Ümummilli lider Heydər Əliyevin Türk dünyası birliyi strategiyası”, Cavadxan Qasımovun isə “Ümummilli lider Heydər Əliyev və Türkiyə-Azərbaycan dövlətlərinin iqtisadi inkişaf perspektivlərinin genişləndirilməsi” mövzuları üzrə məruzələri dinlənilib.

Beynəlxalq Konfransın sonunda, iştirakçılara sertifikatlar təqdim olunub.

**Məmmədbağır Dünyamalıyev**
**NDU-nun Tv, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı**

## Yeni təqaüd proqramları




Azərbaycan Respublikasının Vəkillər Kollegiyası Naxçıvan Dövlət Universiteti ilə birgə əməkdaşlıq müqaviləsinə uyğun olaraq Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq ixtisası tələbələri üçün “Heydər Əliyev adına tələbə təqaüd proqramını” elan edir. Müraciət zamanı bakalavr 2-ci və 3-cü kurs tələbəsi olmaq, yüksək imtahan nəticələrinə malik olmaq (ÜOMG 85 +) .

Bundan başqa,Azərbaycan Respublikasının Vəkillər Kollegiyası Naxçıvan Dövlət Universiteti ilə birgə əməkdaşlıq müqaviləsinə uyğun olaraq Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq ixtisası tələbələri üçün “Süreyya Ağaoğlu adına da tələbə təqaüd proqramını” elan edir. Müraciət zamanı bakalavr 2-ci və 3-cü kurs tələbəsi olmaq, yüksək imtahan nəticələrinə malik olmaq (ÜOMG 85 +), təqaüd proqramına qız tələbələr müraciət edə bilər.




Qeyd edək ki, universitetimizin sosial şəbəkə hesablarında təqaüd proqramlarının qeydiyyat linki və ətraflı məlumatlar paylaşılıb. Maraqlananlar ***ndu.edu.az*** saytına daxil ola bilərlər.

**Pərviz HACILI**

## NDU-nun prorektoru ADA Universitetində keçirilən təlimdə iştirak edib



ADA Universitetində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən “Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2023-cü il üzrə Yol xəritəsi”nin “Yerli elmi jurnalların nüfuzunun yüksəldilməsi və yenilərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi” bəndi üzrə ali təhsil müəssisələrinin və elmi-tədqiqat institutlarının nümayəndələri, eləcə də jurnal redaktorları üçün “Elmin inkişafında elmmetriyanın rolu: Nüfuzlu elmi jurnalların hazırlanması” mövzusunda təlim keçirilib.

Təlimdə Naxçıvan Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Elsevər Əsədov iştirak edib.

## Naxçıvan Dövlət Texniki Kollecində “Ümummilli Lider Heydər Əliyev və təhsil hüququ” mövzusunda tədbir

***Tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyev və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının şöbə müdiri Vahidə Bayramova çıxışı zamanı qeyd edib ki, Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə təhsilə hər zaman böyük önəm verib və Azərbaycan təhsilinin inkişafında Heydər Əliyevin əvəzsiz rolu olub. Vahidə Bayramova Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət təhsil siyasəti, təhsil sistemində aparılan köklü islahatlar, həyata keçirilmiş tədbirlər və görülmüş işlər barədə məlumat verib.




Naxçıvan Dövlət Universitetinin magistratura və doktorantura mərkəzinin direktoru Çapay Quliyev Azərbaycan təhsilinin keçdiyi keşməkeşli yollardan və təhsilin inkişafından danışıb.

Sonra Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanovun “Heydər Əliyev və Azərbaycan Respublikasında təhsil siyasəti”, Müvəkkil aparatının baş məsləhətçisi Elnarə Hüseynovanın “İnsan hüquqları kontekstində təhsil hüququ: beynəlxalq və milli normalar” və Təhsil Nazirliyinin sektor müdiri Mətanət Cəlilovanın “Ümummilli lider Heydər Əliyev və Azərbaycan təhsili” mövzusunda çıxışları dinlənilib.

Sonda ulu öndərin həyat və fəaliyyətində təhsilə verdiyi dəyəri nümayiş etdirən videoçarxa baxış olub, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

**Pərviz HACILI**

## NDU-nun və Naxçıvan Musiqi Kollecinin əməkdaşları Musiqi Forumunda

Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Musiqi Kollecinin əməkdaşları Bakı şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində Azərbaycanda ilk dəfə keçirilən Musiqi Forumunda iştirak ediblər.





Forumda Naxçıvan Dövlət Universitetindən Orkestr alətləri və dirijorluq kafedrasının müəllimi, professor Çingiz Axundov Musiqi nəzəriyyəsi kafedrasının müdiri, dosent İnarə Məhərrəmova, Musiqi nəzəriyyəsi kafedrasının müəllimi, dosent Günay Məmmədova, Naxçıvan Musiqi Kollecinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Məhəbbət Babayeva, kollecin müəllimi, Naxçıvan MR Əməkdar mədəniyyət işçisi Etiqad Seyidov iştirak ediblər.

Nəzərinizə çatdırıq ki, 3 gün davam edən Forumda Azərbaycanın məşhur musiqiçiləri, incəsənət xadimləri iştirak ediblər

**Məmmədbağır DÜNYAMALIYEV.**

# "ŞEYDA" PYESİ "BAKIDA" ŞEİRİNİN DAVAMI KİMİ

Hüseyn Cavidin "Bakıda" adlı şeiri dialoq formasında yazılıb, Balaxanı neft mədənlərinə gedərkən Məsudla Şəfiqə arasında keçən söhbəti əks etdirir. Şəfiqə uzaqdan gördüyü mənzərəni ormana – sərvistana bənzədir, mənzərənin gözəlliyinə heyran qalır, hər baxışda qəlbinə bahar sevinci dolur. Məsudun bu şəhərdə çiçəkli bağçadan əsər olmadığını deməsinə təəccüblənir, onu məzəmmət edir. Şəfiqə nə qədər romantik, sevincli olsa da, bir həqiqət var ki, həqiqətin üzü gülümsəməz, ağlayar. Uzaqdan sərv kimi görünənlər, əslində, ətrafa kirli rayihələr saçan sisli abidələr - çamurlu buruqlar imiş. Bu hissə mənə Məmməd Arazın "Qar" şeirini xatırlatdı. Şair deyir:

*Uzaqdan baxıram, ağappaq, təmiz,*
*Yaxına gəlirəm, qurd düşüb qara.*

Mövzu, üslub fərqinə baxmayaraq, hər iki şairin çatdırmaq istədiyi mesaj, demək olar, eynidir. Yaxına gəlib baxırsan ki, uzaqdan tərtəmiz görünən qarı qurd basıb, kənardan şairanə, sevimli görünənlər, əslində, orman deyil, sisli abidələrdir. Bunu həyatda çox şeyə şamil etmək olar: Gözəllik uzaqlıqdadır və ya uzaqlıq gözəllikdir. Məsud Şəfiqəyə bildirir ki, orada çiçəkdən, sərvdən iz yoxdur, zift axıb hər yeri göl-göl edib, hər tərəf bataqlıqla doludur. Və ən pisi, burada insanlar kor bir ümidə bağlanıb yaşamaq üçün nə qədər zülm çəkirlər. Şəfiqə bu mənzərəni görmək istəmir. Həqiqət xəyalın yanında həmişə çirkin görünür, bəlkə də, bu səbəbdən o, sona qədər getmədi, hələ olanları görməmiş könlündə gizli süvən baş qaldırmışdı, görməyə tab edərdimi, bəlli deyil... Şəfiqə deyir ki, məişət bəlası həyatı məhv edəcək. Bu cümlə artıq Hüseyn Cavidin gələcəkdə yazılacaq böyük əsərinin qığılcımı idi.

"Şeyda" pyesi (1917) məişət bəlasının insanların başına nələr açdığından, hansı faciələrə səbəb olduğundan bəhs edir. "Bakıda" şeirində neftçilərin məşəqqətli həyatının narahatlığı ifadə olunursa, "Şeyda" dramında mühərrirlərin ağır yaşam tərzləri, eyni zamanda mübarizələri əks etdirilir. Fərqli peşələrdə çalışmalarına baxmayaraq, bu insanları birləşdirən əsas ortaq cəhət məişət bəlasıdır. Hər iki əsərdə hadisələr Bakıda baş verir. Şəfiqə kədərli ailələrin, intizar içində qalanların dərdini çəkir, düşünür ki, onlar "sönüb gedər, yaşamaz, cümlə kainata küsər". Biz şeirdə məişət bəlasını onu yaşayanların deyil, izləyənlərin dilindən görürük. "Şeyda" pyesində isə hadisələri birbaşa məişət bəlasının qurbanları danışır. Şəfiqə işçiləri görməməsinə baxmayaraq, düşüncəsində haqlı idi, bu düşüncələr dramda artıq canlanır, elə əsərin baş qəhrəmanı Şeyda cümlə kainata küsmüşdü, hətta özünü dərviş adlandırırdı.Şəfiqə işçilərin həyatını düşünərkən deyir ki, çoxu səqətlənib qoldan, qabırğadan olur, yarım insan, yarım cəsəd qalırlar. Bunlar bəs deyilmiş kimi, ikinci bir zillət də var - zavallıya gülürlər. Şəfiqə bu cümlələri ilə sanki "Şeyda" dramındakı Qara Musadan bəhs edir. Qara Musa mətbəə yolunda qolunu itirib saqat qalmışdı. Hətta yenidən iş üçün mətbəə müdiri Məcid əfəndiyə müraciət edir, lakin müdir "tək əldən səs çıxmaz", - deyə onu rədd edir. O əl ki, mətbəə yolunda əzilmişdi, ona burada iş tapılmasa, başqa harada tapılacaqdı? Şəfiqə deyirdi axı: "...bədbəxt adam nə yapsa gərək..."Şeirdən bizə məlum olur ki, bu insanlar yas və ümid içində yaşayırlar: "Fəqət yaşar kimi, ya'sü ümid içində yaşar". O yaşayışı "Şeyda"da daha canlı şəkildə, daha dərindən hiss edirik. Mühərrirlər bir tərəfdən özlərini "qanı çəkilmiş cəsəd" adlandırır, digər tərəfdən də sabaha ümid bəsləyirlər, marş yazıb səsləndirirlər, inqilab etmək, oyanmaq istəyirlər. Hər halda ümid olmasaydı, kədərə dözüm də olmazdı. Qara Musanın, Şeydanın timsalında bunu açıq-aydın gördük. Ümidlər bitdiyi an həyatlar da bitdi. Böyük ümidlər böyük faciələrə gətirib-çıxarır...

Hüseyn Cavidin də bəzi qəhrəmanları mühitin qurbanı olur, əzilir, istismar edilir, amma Mirzə Cəlilin bir çox qəhrəmanlarından fərqli olaraq, onlar bunun fərqindədirlər və mübarizə aparırlar. Lakin mübarizə yolları düzgün deyildi. Bu oyanış istəyinin özü belə, bir sözlə ifadə etsək - fərqindəlik o dövr cəmiyyəti üçün böyük, ciddi hadisə idi. Oyanma ehtiyacını obrazın özü hiss edir, haqqı, hüququ üçün çarpışır. Şeydanın yazdığı marşda mühərrirlər özləri özlərinə "Qalq! Oyan!" deyirlər. Həm "Bakıda" şeirində, həm də "Şeyda" pyesində Məsud obrazı var. Aralarında bu qədər parallellik, bənzərlik olan bu iki əsərdə eyniadlı obrazın olması, məncə, təsadüf deyil. Maraqlıdır ki, fərqli əsərlərdə yer alan bu obrazın xarakteri də, demək olar, eynidir. Şeirdən tanıdığımız qədərilə, Məsud hər şeyin fərqindədir, həm də hər kəsi anlamaq bacarığı var. Məsələn, Şəfiqəyə qarşıda nələr olduğunu, neft buruqlarını, neftçilərin çətin həyatını səbirlə anladır.

Ən ağır həqiqətləri dilə gətirərkən belə Məsudun nitqində bir aramlıq hiss olunur. Bu da reallıqları bilib, çətin də olsa, qəbul etməkdən qaynaqlanır. Məsudda həm qayğıkeşlik, narahatlıq, həm də sanki sehrli bir soyuqluq var. Soyuqluq adiləşən bilgidən, narahatlıq ürəyin fəryadından qaynaqlanır. "Şeyda" dramında Məsud "Bakıda" şeirində olduğu kimi, hadisələrə uzaqdan baxıb təhlil edən deyil, birbaşa hadisənin içində olan adamdır. O, baş mürəttib vəzifəsində çalışır. İstər hadisənin içində olsun, istərsə də kənarında, Məsud elə həmin Məsuddur. Şəfiqə uzaqdan neft buruqlarını görüb sevincək, həyəcanla Məsuda göstərirdi. Məsud nə edirdi? Həyəcansız, sakit-sakit Şəfiqəni ilğımın düz yanına gətirirdi.

"Şeyda" faciəsində birinci mürəttiblə Məsudun dialoqu Məsudla Şəfiqənin dialoqunu xatırladır. Birinci mürəttib arqadaşlarına üz tutub həyəcanla, təəccüblə Yusifdən danışır: "Allah, Allah, bu nə hal, bu nə qiyafət!?" Məsud isə cavab cümləsinə belə başlayır: "Sən nə zənn etdin, paşam?" Ardınca da Yusifin altı ildir, məhbəsdən fərqi olmayan mətbəədə çalışdığını xatırladır. Yəni o səbəblərdən bu nəticələrin doğulması normaldır. Birinci mürəttibin qeyri-adi şəkildə təqdim etdiyi hadisəni Məsud çox adi qarşılayır... İkinci mürəttib Yusifin heç olmasa bir qədər parası olmasını arzulayır, Məsud laübalı (etinasız) deyir ki, mürəttibdə paramı bulunur? Mürəttiblər Qara Musanın bundan sonrakı halını soruşurlar. Məsud acı təbəssümlə Məcid əfəndinin (mətbəə müdiri) Qara Musanının olub-qalan evini də əlindən alacağını və əsl fəlakətin bundan sonra başlayacağını bıldirir. Doğrudan da, elə olur, Məcid əfəndi Musa kişinin evini zorla əlindən alır. Məsudun acı təbəssümü ətrafındakıların şirin xəyallarına verilən cavabdır. Məsud həqiqətin adamıdır, həqiqətə isə acı təbəssüm etməkdən başqa nə etmək olar ki? Bəli, Məsud həmin Məsuddur, həqiqət isə həmin həqiqət... Şeirlə faciə arasındakı əlaqələr, paralelliklər bunlarla yekunlaşmır.

"Bakıda" şeirinin, demək olar ki, hər misrası "Şeyda" pyesindəki hadisələrin işarəsini verir. Həmin mistik işarələrdən biri - "Onların əcəl qapısı!" Şəfiqə zavallı, bədbəxt adamları düşünür, zift axan quyuları onların əcəl qapısı adlandırır. Keçidlər, bənzətmələr, doğrudan da, möhtəşəmdir. Sərvlər - neft buruqları - məzar daşları... Bu üç birləşmə arasında kədər dayanıb, sərvdən məzar daşına gedən yol... Yaşılın qaraya qayıdışı... Bu qədər bənzərlik və bu qədər ziddiyyət... Cavid burada uçurum adı çəkmir, amma dibinəcən hiss etdirir. Sərv əvvəlcə kirli rayihələr saçan neft buruğuna çevrilir, sonra da qara məzar daşına. Qriqor Zamzanın kədərinin iyi gəlir... Bu təkcə göylərə ucalan sərvin enişi deyil, həm də romantikanın realizmlə görüşündə qırılan qanadlarıdır. O demək deyil ki, romantizm realizmə təslim olur. Əsla! Qırılan qanadın özündə belə bir yüksəliş var.

Düşünürəm ki, Cavid bu şeirində onu romantik, modernist, nihilist, dekadans kimi qələmə verib çərçivələrə salanlara cavab verir. Hüseyn Cavidin ümumi yaradıcılığını bir kənara qoyaq, təkcə bu şeiri götürmək kifayət edər. Məsud realizmin, Şəfiqə romantizmin nümayəndisidir. Və Cavid əfəndi heç bir qəhrəmanını haqsız, zəif çıxarmır. Yeri gələndə Məsud Şəfiqəyə, Şəfiqə də Məsuda haqq verir. Sonunda hər ikisi eyni sual qarşısında cavabsız qalırlar. Bu məqamda Məhəmməd Füzulinin "Rindü-Zahid" əsəri yada düşür. Məscidin öz yeri, meyxanənin öz yeri... Hüseyn Cavidin əsərlərində yuxarıda sadaladığım "izm"lərin hamısı var. Digərlərini görməzdən gəlib, böyüklüyü sadəcə bir "izm"lə çərçivələmək nə dərəcədə düzgündür? Hüseyn Cavid yer üzünü vətən bilən böyük türkdür - azərbaycanlıdır, həm də dünyalıdır. Bir ölkənin sərhədlərinə, bir cəmiyyətin qanunlarına, hətta müqəddəs dinin hüdudlarına sığışmayan şairi hansısa "izm"ə aid etmək sadəcə ədalətsizlikdir! Və illərdir, ədəbiyyatşünaslıq bu tipli suallar üzərində dayanır: "Hüseyn Cavid modernistdir, yoxsa romantik?", "Hüseyn Cavid nihilistdir, yoxsa dekadans" və s. Hüseyn Cavid dahidir, dahilərin isə çərçivələri olmur! "Knyaz" pyesində Antonun dediyi kimi: "Bəncə hər çərçivə dar bir zəncir".Qayıdaq həmin işarəyə - "onların əcəl qapısı". "Şeyda" əsərində də eyni durumla qarşı-qarşıyayıq.



Hadisələr formasını dəyişsə də, mahiyyətini dəyişmir.

Neftçilərin əcəl qapısı neft buruqları idisə, mühərrirlərin əcəl qapısı da mətbəə idi. Qara Musanın saqat qalması, altı ilini məhbəsdən fərqi olmayan mənhus mətbəəyə qurban verən qardaşı Yusifin ölümü, Şeydanın həbsxanada ( hansı ki, günahsız olduğu halda orada yatırdı) "Roza", "Roza" – deyə sayıqlaraq canını tapşırması – bütün bunların səbəbi həmin insanların iş yerindən – mətbəədən qaynaqlanırdı. O insanlar buraya yaşamağa – çörəkpulu qazanmağa gəlmişdilər, haradan bilərdilər ki, yaşamaq üçün gəldikləri bu idarələr onların ölüm səbəbi olacaq. Hüseyn Cavid sadəcə bunları əks etdirməklə kifayətlənməyib. Önəmli bir məsələ daha var: Həmin zəhmətkeş adamların cəmiyyətə faydası... Məsələni şeirdə Məsud izah edir. Deyir ki, bu nəşəsiz, müzlim aləmdən evlər ziyalanır, cahan rövşən olur. Zift axan quyular həm də səadət mənbəyidir. Təzada diqqət edək: Şəfiqə quyuları "əcəl qapısı" adlandırır, Məsud isə "mənbəyi-səadət..." Hüseyn Cavid yenə zidd qütbləri qovuşdurur...Neftçilər olmasaydı, işıq başda olmaqla, bir çox gözəlliklər də olmazdı. Məşəqqətdən gözəllik doğulur...

Bu, Hüseyn Cavidin bir çox əsərində belədir. Cavid yaradıcılığının özünəməxsus, bənzərsiz xüsusiyyətlərindən biri də gözlənilməz böyük çevrilmələr, əks qütblərin vəhdətidir. Gözəllik çoxdur, amma kimin üçün? Suala Şəfiqə cavab verir: sərvət içində yaşayıb kədərin nə demək olduğunu bilməyən zənginlər üçün. Fəqirlərsə zəhərli qazlar udur, nəmli yerlərdə çürüyürlər... Şəfiqənin "Haqqü mə'dələt nərdə?" sualı cavabsız qalır...Dramda isə Şeyda mürəttiblər ilə dialoqunda zəhmətkeş əllərin bəşəriyyət üçün əhəmiyyətindən danışır: "Bu gün yer yüzünün bütün səadət və fəlakəti yalnız o əllərə baqıyor". Yenə ziddiyyətlər - səadət və fəlakət... Eynən "Bakıda" şeirində quyulara münasibət kimi - həm əcəl qapısı, həm də səadət mənbəyi... O əllər çalışmasa, bəşəriyyət şaşırar, bütün dünya hərəkətsiz qalar. Çalışanda da özləri qurbana çevrilirlər, həyatlarından, rahatlıqlarından məhrum olurlar. Şeyda çıxış yolunu mübarizədə görürdü. Üsulları yanlış olsa da, cəhdin özü belə təqdirə layiqdir.

Hüseyn Cavid "Knyaz" dramında da işçilərin həyatına, onların hansı haqsızlıqlara uğramasına yer ayırır. Həm "Şeyda"nın, həm də "Knyaz"ın işçi qəhrəmanları "Haqq verilməz, alınır" düşüncəsindədirlər və haqlarını almaq üçün mübarizə aparırlar. İşçilər sözünü birbaşa knyaza deyir. Kiminin su problemi var, kimisi zirzəmilərdə nəm havanı sovurmaqdan xəstə olub ( "Bakıda" şeirində Şəfiqə də bunu vurğulayır ), kimisi də vergilərin ağırlığından şikayət edir. Məşəqqətdən gözəllik doğulması hadisəsi burada da var. Zövqün, həzzin arxasında ağır əzablar dayanır, amma zənginlərə zövqdən, fəqirlərə əzabdan pay düşür. Altı qız-oğlan atası olan adamı tütün fabrikası məhv edib, o, üzünü ətrafındakılara tutub deyir ki, sizin zevq alıb içdiyiniz o tatlı siqar bu cigərdən süzülən qanla qoqar. Dolayı yolla insanlar başqalarının cigər qanından zövq alırlar. Bu işçinin də əcəl qapısı tütün fabrikasıdır...

Əsərdə birinci işçinin dilindən deyilən aşağıdakı misralar sanki "Bakıda" şeirində, "Şeyda" faciəsində baş verənlərin səbəbinə işıq tutur. "Yara, başdan-başa hər yer yaradır,İştə, bunlar, sizi bunlar yaşatır". "Hərb ilahı qarşısında" adlı şeirində Cavid əfəndi yazırdı ki, hər tanrının qan içməyə hüsnrəğbəti var. İnsanlar da başqalarının yaralarından güc alıb onlarla yaşayırlar. Tanrının belə qan içməyə hüsn-rəğbəti varkən, insanın insanın yarası ilə yaşaması təəccüb doğurmur. Yenə "İblis" yada düşür: İnsan xisləti..!

**GÜLAY TAHİRLİ**
**Jurnalistika və xarici ölkələr**
**ədəbiyyatı kafedrasının müəllimi**

# "Azercell Tələbə Təqaüd proqramı-2024 Naxçıvan Dövlət Universitetində" adlı təqdimat keçirilib





Ali təhsil müəssisəsinin Mühasibat uçotu şöbəsinin müdiri Ülvi Baxışlı keçirilən tədbirlərin gənclərin inkişafına və gələcək karyeralarına müsbət təsirindən danışıb, universitetdə keçirilən bu tədbirlərin tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərdiyini vurğulayıb.

"Azercell Telekom" MMC-nin İnsan Kapitalının İdarə edilməsi departamenti, Biznes partnyorluq və Performansın idarə edilməsi şöbəsinin mütəxəssisləri Günay Quliyeva və Fatimə Abdullayeva qeyd ediblər ki, bu əhəmiyyətli təqaüd proqramını həyata keçirməkdə əsas məqsəd təhsildə müvəffəqiyyət əldə edən yüksək potensiallı tələbələrə xüsusi qayğı göstərmək, onların gələcəkdə peşəkar kimi formalaşmasına dəstək verməkdən ibarətdir. Vurğulanıb ki, proqramın bütün seçim mərhələlərini uğurla keçən tələbələr cari təhsil müddətinin sonuna qədər şirkət tərəfindən 300 AZN məbləğində aylıq təqaüd alacaq. Eyni zamanda gənclər proqram çərçivəsində İKT sahəsindəki biliklərini artırmaq, şirkətin korporativ tədbirlərində və sosial fəaliyyətində iştirak etmək, müxtəlif təlimlərə qoşulmaq və şirkətdə təcrübə keçmək imkanı əldə edə biləcəklər.

Təqdimatda bildirilib ki, proqram istiqamətləri kibertəhlükəsizlik, informasiya texnologiyaları, biznes analitikası, data science və marketinq ixtisasları üzrədir.

Tədbirdə fəal iştirak edən tələbələr "Azercell Telekom" MMC tərəfindən müxtəlif hədiyyələrlə mükafatlandırılıb.

**Pərviz HACILI**

# Əcnəbi professorlar Naxçıvan Dövlət Universitetində tədrisə cəlb olunublar

*Naxçıvan Dövlət Universiteti ölkənin ən nüfuzlu, qabaqcıl təhsil ənənələrinə malik tədris ocaqlarındandır. Bu gün ali təhsil ocağında beynəlmiləlləşmə strategiyasının həyata keçirilməsi və fəaliyyət planının yaradılması, beynəlxalq tərəfdaş universitetlər ilə, eyni zamanda, ikitərəfli universitet mobillik müqavilələrin bağlanılması, hazırlanması və dəyərləndirilməsi, beynəlxalq əməkdaşlıq çərçivəsində tələbələr üçün yaradılmış imkanların genişləndirilməsi və idarəsi, tələbə, işçi heyəti və tədqiqatçı mobilliyinin inkişaf etdirilməsi və idarəsi həyata keçirilir, beynəlxalq səfərlər, konfrans və seminarlar təşkil edilir.*

Dövlətimiz tərəfindən göstərilən diqqət, düzgün təhsil strategiyası və inkişaf proqramının tətbiqi sayəsində ali təhsil ocağı ildən-ilə yeni-yeni uğurlara imza atır, keyfiyyət göstəriciləri ilə ölkə universitetləri arasında ilk sıralarda öz yerini alır. Mübaliğəsiz qeyd etmək olar ki, bu gün Naxçıvan Dövlət Universitetinin dünya təhsilinə keyfiyyətli inteqrasiyası üçün görülən işlər uzunmüddətli hədəflərin reallaşması və təhsilin daha da inkişafı üçün gələcəyə hesablanmış uğurlu addımlardır. Universitetin elmi potensialı hər zaman özünəməxsusluğu ilə seçilib. NDU-nun elm camiəsi öz sahəsinin peşəkarına çevrilən professor-müəllim heyətinin və xaricdən dəvət olunan mütəxəssislərin universitetə cəlb edilməsi hesabına formalaşıb. NDU-da son illərdə təhsildə keyfiyyətin daha da artırılması, dünya təhsilinə sürətli inteqrasiya, tələbələrin müasir biliklərə yiyələnməsində başlıca istiqamətlərdən biri də onların əcnəbi müəllimlərlə təmasıdır. Bu məqsədlə ölkəmizin və dünyanın nüfuzlu universitetlərində çalışan yüksəkixtisaslı professorlar universitetə dəvət edilir. Xüsusən, ingilisdilli ixtisaslar üzrə professor-müəllimlərin dəvət olunmasına üstünlük verilir ki, dəvət olunan mütəxəssislərin həmin sahənin peşəkarı olması, sözügedən sahədə müvafiq nailiyyətlər əldə etməsi, yerli və beynəlxalq sertifikatlarının varlığı və həmin şəxslərin tərcümeyi-halları nəzərə alınır. Məlumat üçün qeyd edək ki, 2023-2024-cü tədris ili üçün ali təhsil ocağına 7 professor-müəllim dəvət olunub.

Universitetə dəvət olunan müəllimlərdən olan, Yaponiyada fəaliyyət göstərən dünya şöhrətli azərbaycanlı alim, elektronika mühəndisi, professor Xəlil Kələntərlə söhbətimiz zamanı o, Naxçıvan Dövlət Universitetinin elmi potensialından danışaraq qeyd etdi ki, burada yaradılan şərait Yaponiyanın ən qabaqcıl ali təhsil müəssisələrindəki şəraitdən heç də geri qalmır. Dünya universitetləri ilə qarşılıqlı əlaqələrin nəticəsidir ki, Naxçıvan Dövlət Universitetinin Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa, Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası, Rusiya, Macarıstan, Misir Ərəb Respublikası, Pakistan İslam Respublikası, Cənubi Koreya Respublikası, Avstriya və digər ölkələrin universitetləri ilə əməkdaşlıq əlaqələri mövcuddur. Mən də bu səbəbdən ali təhsil ocağının mənə əməkdaşlıq barədə təklifini böyük məmnuniyyətlə qəbul etdim. Burada dərs müddətində tələbələrlə elmi fəaliyyətin təşkili, təhsil və tədqiqat işlərinin strukturu, şəxsən məşğul olduğum LCD texnologiyaları, LED ekranların yaradılması, həmçinin apardığım tədqiqatların nəticələrini, ixtira və patentlərim barədə biliklərimi sevəsevə bölüşürəm. İnanıram ki, dərslərimin tələbələrin gələcək elmi həyatında uğur qazanmaları üçün mühüm rolu olacaq.



Ali təhsil ocağının Tibb fakültəsində "Uşaq xəstəlikləri" fənnini tədris edən Dicle Universiteti Tibb fakültəsinin professoru İlyas Yolbaşla söhbətimiz zamanı qeyd etdi ki, qardaş ölkədə olmaqdan çox məmnundur. Onu qədim diyara gətirən səbəb burada yaradılan sağlam mühit və tələbələrin elmə, təhsilə marağının yüksək olması, həmçinin pedaqoji kollektivin məsuliyyəti və yüksək mədəni münasibəti oldu.

Professor söylədi ki, Tibb fakültəsində uşaq xəstəlikləri barədə mühazirələr oxuyuram. Qeyd etmək istəyirəm ki, fakültədə tibb fənnlərini tədris etmək üçün müasir tədris bazası var. Burada formalaşmış elmi-pedaqoji mühit bütünlüklə müasir təhsil müəssisəsi qarşısında qoyulmuş standartlara uyğundur.

Universitetdə ingilisdilli Kompüter mühəndisliyi ixtisasının



müəllimi, professor Rüya Şamlı ilə də həmsöhbət olduq. Onun dediklərindən: - Kompüter mühəndisliyi ixtisasının məzunları həm yerli, həm də beynəlxalq əmək bazarında ən çox tələb olunanlar sırasındadır. Onların işi əsas olaraq avtomatlaşdırılmış sistemlərin və kompüter şəbəkələrinin layihələndirilməsi, planlaşdırılması, qurulması, testləşdirilməsi, idarə olunması və optimallaşdırılmasından ibarətdir. Bu baxımdan Naxçıvan Dövlət Universitetində bu ixtisasın uzun illərdən bəri, ingilisdilli ixtisasın isə bir neçə ildir fəaliyyət göstərməsi təqdirəlayiq haldır.

Rüya Şamlı vurğulayır ki, mənim tədris etdiyim veb proqramlaşdırma, veb sistemləri və texnologiyaları, dövrün tələbinə çevrilən süni intellekt sahələri üzrə universitetdə mütəxəssis hazırlığının həyata keçirilməsi və tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması üçün infrastruktur mövcuddur, müasir proqram təminatları ilə təchiz olunmuş kompüter laboratoriyaları fəaliyyət göstərir. Bir sözlə burada çox yaxşı elmi mühit yaradılıb və ən əsası tələbələr elm öyrənmək üçün çox istəklidirlər.

Bu gün qürurla qeyd edə bilərik ki, Naxçıvan Dövlət Universiteti yüksək elmi mühitə malik olan, dünya elminə sürətlə inteqrasiya edən müasir tipli ali məktəbdir. Bütün bu və digər qeyd olunanlar Naxçıvan Dövlət Universitetində keyfiyyət amilinin ön planda saxlanılması, hər cür innovativ yeniliklərin cəsarətlə tətbiq olunması istiqamətində görülən işlərin məntiqi nəticəsidir.

**Pərviz HACILI**

# NDU-nun əməkdaşları Portuqaliyada bir həftəlik təlimlərdə iştirak ediblər



Naxçıvan Dövlət Universitetinin əməkdaşları– rektor məsləhətçisi Rəcəb Cəfərli və Elm və innovasiyalar şöbəsinin müdiri Elnarə Allahverdiyeva Portuqaliyanın Lissabon şəhərində bir həftəlik təlimlərdə iştirak ediblər. Mingəçevir Dövlət Universitetinin koordinatoru olduğu və Avropa Komissiyası tərəfindən maliyyələşdirilən "Azərbaycan ali təhsil müəssisələrində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi" (ENGAGE) mövzusunda Erasmus+ layihəsi çərçivəsində növbəti təlim səfəri Portuqaliyanın Ali Texniki İnstitutunda öz işini yekunlaşdırıb.

23-27 oktyabr tarixlərini əhatə edən işgüzar səfərdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin nümayəndəsi, layihədə iştirak edən 11 Azərbaycan ali təhsil müəssisəsinin rektorları, prorektorları, inzibati və akademik heyət üzvləri, eləcə də layihənin İsveç, Polşa, İspaniya, Estoniyadan olan xarici tərəfdaş universitetlərinin nümayəndə heyəti iştirak ediblər. Təlimlərin əsas məqsədi innovasiya və sahibkarlıq fəaliyyətləri və tədbirlərinin universitetdə tətbiqinə dair Portuqaliya ali təhsil müəssisələrinin qabaqcıl təcrübələrinin öyrənilməsi olub.

Beş günlük təlim proqramına uyğun olaraq iştirakçılar texnologiya mərkəzləri, sosial innovasiya laboratoriyası, texnologiya əsaslı sahibkarlıq proqramları kimi mövzularda təqdimatlarla tanış olaraq müzakirələr aparıb, o cümlədən Lissabonda yerləşən bir sıra texnologiya laboratoriyaları və innovasiya mərkəzlərini ziyarət ediblər.

Təlimlərin yekununda isə layihənin cari vəziyyətinin təhlilinin aparılması və gələcək 6 ay üçün fəaliyyət planının qurulması, eləcə də layihə konsorsiumunun üzvü olan ali təhsil müəssisələrinin məsul şəxslərinin iştirakı ilə 5 gün müddətində keçirilən təlim və təqdimatlara əsasən komanda işlərinin təşkili və Portuqaliyalı partnyorlarla qarşılıqlı fikir mübadilələrinin aparılması nəzərdə tutulub.

# Universitet müəlliminin məqaləsi Polşa Universitetinin Elmi Jurnalında dərc olunub


SCIENTIFIC JOURNAL OF POLONIA UNIVERSITY 58 (2023) 3

Periodyk Naukowy Akademii Polonijnej, Częstochowa, 2023, 58 (2023) nr 3, s. 342

PARTNERZY / PARTNERS

NUIFE NETWORK OF UNIVERSITIES IN FREE ENTERPRISE

Scientific journal has the scores, is available in the Open Journal Systems database (http://pnap.ap.edu.pl/index.php/pnap) and has the DOI prefix.
PNAP – Scientific Journal of Polonia University is admitted to the following international scientific databases:

- DOAJ (Directory of Open Access Journals);
- Polish scientific and professional electronic journals;
- General Impact Factor;
- Punktacjaczasopism;
- UlrichsWeb;
- CiteFactor;
- DRJI;
- Nukat;
- Sindexs;
- ROAD;
- IndexCopernicus;
- Crossref;
- WorldCat;
- Universitätsbibliothek Leipzig;
- TIB;
- ESJI;
- PBN;
- Scilit;
- TIB;
- JIFactor.

The paper version of the Journal is the original version. The Journal is available in the electronic form on the website: www.pnap.ap.edu.pl

ISSN 1895-9911 Print
ISSN 2543-8204 Online

© Copyright by Publishing House of Polonia University „Educator", Częstochowa 2023

Wydawnictwo Akademii Polonijnej „Educator"
ul. Gen. Kazimierza Pułaskiego 4/6, 42-226 CZĘSTOCHOWA
tel: +48 530 137 864, wydawnictwo@ap.edu.pl, www.ap.edu.pl

Naxçıvan Dövlət Universitetinin "Teatr və mədəniyyətşünaslıq" kafedrasının müdiri, Filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Gülxarə Əhmədovanın elmi məqaləsi Polşa Universitetinin Elmi Jurnalında dərc olunub.

Məqalənin qısa xülasəsini təqdim edirik:

Teatr insanlara maddi və mənəvi problemləri əks etdirməkdə dünya üzərindəki ən təsirli sənət növlərindən biridir. Yunanca "theatron", yəni "görmə yeri" sözündən yaranan teatr ta qədim zamanlardan başlayaraq insanların həyatında böyük rola malik olmuş, ölkələrin siyasi konsepsiyalarının ayrılmaz hissəsinə çevrilmişdir."

**Pərviz HACILI**

# Naxçıvan Dövlət Universitetinin əməkdaşı beynəlxalq forumda



Naxçıvan Dövlət Universitetinin müəllimi, Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımov Özbəkistanın Səmərqənd şəhərində keçirilən I Özbəkistan - Azərbaycan Gənclər Forumunda, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Gənclər Şurasının 6-cı iclasında, eləcə də, Beynəlxalq Gənc Liderlər Forumunda və "Nəsillərin dialoqu" adlı iclasında ölkəmizi təmsil edən nümayəndə heyətinin tərkibində iştirak edib.

**Səadət ƏLİYEVA**

# "İblis" əsəri müzakirə olunub

NDU-nun Elmi Kitabxanasında "Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq" kafedrasının əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Şərəbanı Məmmədovanın təşkilatçılığı ilə Azərbaycan şairi, yazıçı və dramaturqu Hüseyn Cavidin "İblis" dörd aktlı faciəsinin müzakirəsinə həsr olunan dəyirmi masa keçirilib.

Tədbiri giriş sözü ilə açan Şərəbanı Məmmədova Hüseyn Cavidin klassik Azərbaycan ədəbiyyatının ənənələrini inkişaf etdirən bir sənətkar kimi göstərdiyi fəaliyyətdən bəhs edib. Qeyd olunub ki, şair, dramaturq XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olub. Hüseyn Cavid sənəti janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir.

Tədbirdə daha sonra Hüseyn Cavidin "İblis" əsəri təhlil olunub. Vurğulanıb ki, əsərdə Hüseyn Cavidin bir filosof və humanist insan kimi düşüncələri, ədalətsiz mühariblərə nifrət hissləri oyatması ideyaları əks olunub.

# Çağdaş dövrdə ənənəvi və elektron kitabxanaların təşkili: reallıqlar və perspektivlər

Naxçıvan Dövlət Universitetində "Çağdaş dövrdə ənənəvi və elektron kitabxanaların təşkili: reallıqlar və perspektivlər" mövzusunda elmi-nəzəri seminar keçirilib.

Konfransı giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, elektron kitabxanalarda informasiya texnologiyalarının tətbiq edilməsi istifadəçilərə dünya informasiya məkanına daxil olması baxımından daha geniş imkanlar yaradır. Rektor kitabxana fəaliyyətinin təkmilləşdirilməsi və yeni texnologiyaların tətbiqinin təmin edilməsi istiqamətində aparılan dövlət siyasətindən bəhs edib.



Sonra Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova "NDU Elmi Kitabxanasının ənənəvi və elektron kitabxana sistemindəki yeri" mövzusunda geniş məruzə ilə çıxış edərək qeyd edib ki, 1968-ci il aprel ayının 23-dən fəaliyyət göstərən universitet Elmi Kitabxanası 2013-cü il iyulun 9-dan elektron kitabxana kimi fəaliyyətə başlayıb.

Sonra muxtar respublikada və ali təhsil müəssisələrindəki kitabxanaların direktorları və müdirlərinin çıxışları dinlənilib.

# TURAN QALXIR AYAĞA

*Mən Turan şairiyəm!.*
*Həqiqətin aşiqi,*
*Zəfərin dan yeriyəm!..*
*Mən Turan şairiyəm!..*
*Tanrının gur işığı,*
*Cənnətin Kövsəriyəm!..*
*Közüm köz olub mənim.*
*Sözüm söz olub mənim,*
*Çağlayan bir türküyəm...*
*Tarixlər yaşıdıyam,*
*Kököm çox dərindədir...*
*Onuncün də diriyəm.*
*Dünyası mənə ilk ev,*
*Göyü də qübbəm olan*
*Kainatın piriyəm.*
*Azadlıq bayraqdarı,*
*Köləliyin qənimi,*
*Bəşəriyət hürrüyəm...*
*Mən Turan şairiyəm!..*
*Mən Turan şairiyəm!..*
***
*Əsr təlatümdədir, çırpınır öz içində,*
*Turan qalxır ayağa indi başqa biçimdə.*
*Yerdən, Göydən müjdə var ərənlər ərəninə:*
*"Bəşər səcdə edəcək Turançılıq dininə".*
*Bu din dinlər dinidir, gəlibdir yaranışdan,*
*Bu dinin hər ayəsi doğulubdur savaşdan.*
*İnsan,insanlıq üçün savaşda olub hər an,*
*Ancaq bircə yol belə tökülməyib nahaq qan.*
*Bu dinin peyğəmbəri Alp Ər Tonqa Xaqandır,*
*Xaqanların xaqanı, Cahan içrə Cahandır.*
*O, Allahı bir görüb, Göyə Tanrı deyibdir.*
*Əyninə Tanrı rəmzi göy libasın geyibdir.*
*Bilibdi ki, göy rəngdə bir yaratmaq eşqi var,*
*Yaradanın eşqindən yaranmışda nəsə var.*
*İnsan yaranışından yaradanın quludur,*
*Onunçün də Yaradan ululardan uludur.*
*Bu ulu qüvvət verdi türkə hörmət,ehtiram,*
*Türkü etdi dünyaya sahibi- natiq Quran.*
*Bir əliylə endirən, bir əliylə qaldıran*
*Türkün gücü edibdi şərin mülkünü viran.*
*Tanrı türkü göndərib ədalətin rəmzitək,*
*Dünyaya düzən gəlsin türkün əliylə, gerçək.*
*Min illərdir türk oğlu Şərqin, Qərbin ağası,*
*Ulu türksüz olmayıb dünyanın toyu,yası.*
*Bütün başlar, başçılar türkə səcdəyə gəlib,*
*Türk də kimin kimliyin çox ustalıqla bilib.*
*Bəlkə elə bununçün Məhəmməd Mustafadan*



*Hökm gəldi bəşərə:*
*"Türkə asi olmayın", söyləyibdi Yaradan.*
*Harda bir türk yaşarsa, demək, orda haqq yaşar,*
*Haqq olan yerdə isə ədalət coşub daşar.*
*Göy türk imperatoru böyük Bilgə Kağanın*
*Fərmanı dolaşırdı dünyanın dörd bir yanın:*
*"Göydən göy çökmədikcə,Yerdən Yer batmadıqca*
*Türk törəsi pozulmaz, türk oğlu yatmadıqca".*
*Türkə çağırış etdi ərənlər əri Kağan:*
*"Ey türk, özünə qayıt, sən özünə qayıtsan,*
*Daha ulu,möhtəşəm,daha böyük olassan"*
*Türk özünə qayıdıb elə yarandığından,*
*Qoruyubdu bəşəri ölümdən,qırğın,qandan.*
*On altı imperiyanın, iyirmi dövlətin*
*Qurucusu türk olub,daha cəsur və mətin.*
*Tarix qansız,amansız, tarix qəddar,baş kəsən,*
*Bəzən İblisə uyub fitnə toxumu əkən.*
*Ən qorxlu çağında, Çaldıran torpağında*
*Qardaş qanı tökdürüb türkün türk ocağında.*
*Tarixin dönəmində çox iblislər doğulub,*
*Türkü türkə saldıran bədxahlar da çox olub.*
*Lakin türk öz türklüyün qoruyub zaman-zaman,*
*Ona dönük çıxana vaxtında uddurub qan.*
*Varaqla bir tarixi, türkə dönük çıxanlar,*
*Hər əsrdə türk olan türkün öz öndəri var.*
*Türkün şanlı bayrağı, bayraqdarı Atatürk*
*Söylədi:*
*"Türkün dostu dünyada türkdür elə ən böyük".*
*Bir ucu Gündoğandan,bir ucu Günbatandan,*
*Halay qurub hay vuran türkdür gəlib bir qandan.*
*Kükrəyib çağlayanda atının kişnərtisi,*
*Göylər də vəcdə gəlib ucaldardı bu səsi.*
*İndi bu səs səs olan "Bayraqdar"ın səsidir,*
*Türkün türkə əvəzsiz ən böyük töhfəsidir.*
*Türkün "Qızıl alması"qalxanda göy üzünə,*
*Bir barış gətirəcək dünyanın hər üzünə.*
*Bu gün türkü yetirən, şərəf, şöhrət və şana*
*Türk oğlu türk Ərdoğan daha sığmır Cahana.*
*O dönməz iradəli,məğrur, uca, yenilməz,*
*Vulkan kimi möhtəşəm, dağlar kimi əyilməz,*
*Türkün türk qüdrətini qaytardı öz-özünə.*
*Türkə kəc baxanların bıçaq sancdı gözünə.*
*Onun cəsarətində Yerin,Göyün gücü var,*
*Onun böyük amalı TURAN adlı bir diyar.*
*O bir Tanrı gücüylə qaldırmaqla ayağa*
*"Türkəm" deyən hər kəsi döndərdi ulu dağa.*
*Dağlar dağa qovuşub yandırırlar çırağı,*
*Qaldırırlar göylərə Turan adlı bayrağı.*
*O bayrağın önündə dayanıb məğrur-məğrur*
*Mənim Azərbaycanım,baxışında min qürur.*
*Oddan keçib od olub od daşıyan millətim,*
*Qalib, zəfər adıyla dünya gəzir şöhrətin.*
*Bu şöhrəti şöhrətə mindirən türk qardaşım,*
*Qoy həmişə ucalsın göylərə məğrur başın.*
*İndi əlli milyonuq türk toplumu içində,*
*Əlli milyonluq ordu yerin, göyün gücündə*
*Qazax, qırğız, özbəyin azadlıq amalına*
*Qoşulub türkmən,uyğur bir Turan cəlalına...*
*...Turan qalxır ayağa, başlayır Türk erası ,*
*Bundan sonra bitəcək "böyüklərin" qovğası.*
*Çin səddi yaxşı bilir türkün böyüklüyünü,*
*Bilir türklə açılıb dünyanın hər düyünü.*
*Daha kimsə kimsəyə "mənəm,"mən" deyə bilməz,*
*Türkün həddi olmadan özlərin öyə bilməz.*
*Onda bəşər biləcək yaşamağın dadını,*
*Onda hər kəs biləcək öz nəslinin adını.*
*Biləcəklər dünyada, sən demə,həqiqət var,*
*İnsanı insan edən ədalət, ləyaqət var.*
*Çəkiləcək ayağı "tülkü siyasilərin",*
*Hər kəs Haqqın önündə tapacaqdır öz yerin.*
*Dünya türk işığıyla süslənəcək günbəgün,*
*Başlanacaq dünyada yeni mizan,yeni gün.*
*O günün hərarəti qızdıracaq hər kəsi,*
*Tutacaqdır dünyanı insanlığın haqq səsi.*
*Turan qalxır ayağa, sayalı olsun adı,*
*Kəsiləcək göz yaşı- insanlığın fəryadı.*
*Turan qalxır ayağa, bunu Yer, Göy də bilir,*
*Dünyaya yeni nəfəs, dünyaya işıq gəlir.*
*Turan qalxır ayağa!...*
*Dünyaya Turan gəlir!...,*
*Dünyaya iman gəlir!...*
*Dünyanı quran gəlir!...*

*Xanəli Kərimli*




## Şəhid ƏZİZBƏY MURADOVun xatirəsinə

*Yavaş-yavaş itir barmaqlarının*
*izləri,*
*Tozlar bəyazlara qonmaq üstündə*
*savaşırlar,*
*Sonra birtəhər yer edirlər*
*özlərinə.*
***
*"İncəbelli"lərin gözləri yağışla-*
*rın dostudur indi.*
*Ayaqlarını torpağa basdırmış*
*Piano darıxır bir payız sabahında.*
*Toxunulmamaq yetim qalmaq*
*deyilmi?*
*Ağrısını hiss etmisənmi*
*heç klavişlərin ahında?*
*Əlcəklərin barmaq ucların*
*qoruya bildimi?*
*Mən yaxşı bilirəm, barmaq*
*uclarından üşümək nədir!*
*Üşümək ürəkdən, bədəndən,*
*ruhdan,*
*Barmaq uclarının yanında*
*yalandır, yalan!*
***
*Gözlərimdən bir damcı da yaş*
*çıxara bilmədi*
*Nə yetim piano, nə də*
*incəbellilərin naləsi.*
*Amma üşüyürəm,*
*barmaq uclarımdan üşüyürəm.*
*Qulağımın birinə silah,*
*Birinə musiqi səsi gəlir.*
*Ürəyimi elə bil əllərini*
*üşüdən havanın*
*Buzu vurub,*
*Durub, ürəyim durub…*
***
*Ömrümdə ilk dəfədir, danışdıra*
*bilmədiyim üçün*
*Utanıram bütün pianolardan.*
*Sarılsam, ancaq ayaqlarına sarı-*
*la bilərəm.*
*Klavişlərə yox! Klavişlərə yox…*
***
*Üşüyürəm, barmaq uclarımdan*
*üşüyürəm.*
*Bəstələnməmiş musiqilərin,*
*Çalınmamış nəğmələrin soyuğu*
*hopub ruhuma.*
****
*Bircə de ki,*
*Orada ancaq gözəl nəğmələr*
*oxuyurlar.*
*Gözəl nəğmələr gözəl günəşin*
*altında…*

*GÜLAY TAHİRLİ*
*Jurnalistika və xarici ölkələr*
*ədəbiyyatı kafedrasının*
*müəllimi*

## Adları şəhiddir

*Torpağın uğrunda keçdi canından,*
*Adları şəhiddir, yaşayır onlar.*
*Torpaqlar güc aldı qızıl qanından,*
*Adları şəhiddir, yaşayır onlar.*
***
*Odlu əjdahaya, divə döndülər,*
*Canlı əfsanəyə, mifə döndülər,*
*Bayrağa bükülü evə döndülər,*
*Adları şəhiddir, yaşayır onlar.*
***
*Sarıb övladının məzar daşını,*
*Ağlama, ay ana, dik tut başını,*
*Düşmənlər sevinər, sil göz yaşını,*
*Adları şəhiddir, yaşayır onlar.*
***
*Yara könül verib, könül alan var,*
*Üzüyü barmaqda yetim olan var,*
*Arzusu evitək yarım qalan var,*
*Adları şəhiddir, yaşayır onlar.*
***
*Mübariz, məğrur ol, şəhid övladı,*
*Şəhidlik zirvədi, şəhid ucadı,*
*Şəhidlər Peyğəmbər məqamındadı,*
*Adları şəhiddir, yaşayır onlar.*
***
*Şəhidlər haqqını eyləsin halal,*
*Canavar önündə yox oldu çaqqal,*
*Cəbhədə can qoydu cənab General,*
*Adları şəhiddir, yaşayır onlar.*

*Taleh HAXVERDİYEV*
*Memarlıq və mühəndislik fakültəsinin müəllimi*

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
Telefonlar:
544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ NDU

Qeydiyyat №330
Sifariş №
Tiraj 300

DİZAYNER:
Nardanə ƏLİYEVA
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.